# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 67 (3391) Cümə axşamı / 8-14 iyul 2021-ci il Qiymәti 40 qəpik


# Orden və medal alan hərbçilər

## Hansı imtiyazlara malikdirlər?

*Ötən ilin sentyabrın 27-də başlayan Vətən müharibəsinin Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşmasından 9 aya yaxın vaxt keçib. Bu müddət ərzində Prezident İlham Əliyevin imzaladığı müxtəlif sərəncamlarla müharibə iştirakçıları orden və medallara layiq görülüblər. Dövlət başçısı iyunun 24-də imzaladığı sonuncu sərəncamlarla 76 mindən çox hərbi qulluqçunu təltif edib. Hazırda aidiyyəti qurumlar tərəfindən orden və medallar təltif olunmuş hərbi qulluqçulara təqdim edilməkdədir. Bu məsələ ətrafında narazılıqlar hələ də qalmaqdadır. Döyüşlərdə iştirak etmələrinə baxmayaraq, medalsız qaldıqlarını iddia edən bəzi müharibə iştirakçıları hesab edirlər ki, təltif olunma prosesində ədalətsizliyə yol verilib. Belə ki, hərbi hissənin qərargahında oturub prosesə nəzarət edən hərbi qulluqçu ilə döyüş prosesinin qaynar nöqtəsində olub, əməliyyatlarda birbaşa iştirak edənlərə eyni medalların verilməsi müəyyən narazılıq yaradıb. Hesab olunur ki, bu prosesdə medallar ön və arxa cəbhədə xidmətlərə görə təqdim olunmalı idi.*





Maraqlıdır, görəsən, mütəxəssislərin bu məsələdə yanaşması necədir? Ümumiyyətlə, hərbi qulluqçulara təqdim olunan orden və medallar arasında ən üstün statusa malik olan hansıdır? Orden və medallar hərbi qulluqçulara hansısa imtiyazları verirmi?

■ **Məsələni "Həftə içi"nə şərh edən hərbi ekspert Ədalət Verdiyev bildirir ki, Azərbaycanın Milli Qəhrəmanı və Vətən Müharibəsi Qəhrəmanından başqa digər orden və medallar heç biri xüsusi ödəniş, imtiyaz təqdim etmir:** "Orden və medallar müəyyən əsgər və hərbçilərin müharibədə göstərdiyi xüsusi xidmətinə görə verilən fərqlənmə nişanlarıdır. Hər bir orden və medalın özünün statusu var. Ordenlərin bir qismi göstərilən xüsusi qəhrəmanlıqlar, şücaət üçün nəzərdə tutulubsa, bir qismi isə sadəcə ərazilərin azad edilməsinə görə keçirilən əməliyyatda iştirakı təsdiqləyir. Təbii ki, ordenlər daha üstün statusa malikdir. Dediyim kimi, ərazilərin azad olunmasına görə verilən medallar sadəcə keçirilən döyüş əməliyyatlarında iştirakı təsdiqləyir. Yalnız Vətən Müharibəsi Qəhrəmanı və Milli Qəhrəmanlara aylıq ödənişlər təyin olunur. Həmin ödənişlər də zaman-zaman artırılır. Digər orden və medallar üçünsə hansısa imtiyaz, aylıq pul ödənişi nəzərdə tutulmayıb".

Orden və medalların təqdimatı zamanı ön və arxa cəbhə amilinin nəzərə alınmaması barədə səsləndirilən iddialara gəlincə, ekspert vurğulayır ki, əməliyyatı planlaşdıran beyin mərkəzi olmadan sahədə əsgər özbaşına olaraq plansız şəkildə hansısa nailiyyət əldə edə bilməz: "Buna görə də bu məsələlərə bir qədər ehtiyatla yanaşmalıyıq. Təbii ki, əməliyyatlarla əlaqəsi olmayanların əməliyyatla əlaqəsi olanlarla eyni qaydada mükafatlandırılmasının mən də əleyhinəyəm. Bu məsələlərə qəti olaraq fikir bildirməkdən ötrü konkret faktlara əsaslanmalıyıq. Bu faktlar olmadığı təqdirdə, kimin harada olduğunu söyləmək də çətindir. Düşünmürəm ki, aidiyyəti qurumlar bu məsələlərlə bağlı narazılıq yaradacaq addımlara yol versinlər. Kimin nəyə görə mükafatlandırılmasını açıqlamaq da bəzi hallarda mümkün olmur. Elə əməliyyatlar var ki, məxfi əməliyyatlardır. Həmin əməliyyat dövlət sirri təşkil edirsə, məxfidirsə, onu açıqlamaq olmaz. Təbii ki, kimsə əməliyyatlarla əlaqəsi olmadan hansısa şəkildə mükafatlandırma siyahısına düşübsə, mən də bunun əleyhinəyəm. Əksinə, mükafatlandırılmayan insanlar varsa, bu problem aradan qaldırılmalıdır. Təbii ki, belə şəxslər var və problemin aradan qaldırılacağına ümidim çoxdur".

Döyüşdə iştirak edən bəzi hərbi qulluqçuların orden və medalla təltif edilməməsi səbəblərinə də aydınlıq gətirən Ədalət Verdiyev bildirir ki, burada səbəblər müxtəlifdir: "Tutaq ki, bir bölmə var. Bölmənin komandiri heyətini tanıyır və həmin heyətlə döyüşə girir. Məsələn, bölmə komandiri döyüşdə həlak olur və yerinə yeni bir komandir təyin olunur. Köhnə komandir həyatda yoxdursa, yeni gələn heyətdəkiləri tanıyırmı-tanımırmı məsələsi ortaya çıxır. Bilirsiniz, müharibədə çox şey baş verə bilər. 1945-ci ildə döyüşən babalarımız 80-90, hətta 2000-ci illərə kimi hələ də orden və medallarını alırdılar. Təbii ki, indi 1945-ci il deyil, texnologiya əsridir. Bir az proseslər fərqli gedə bilər. Nəzərə almaq lazımdır ki, bu, bir müharibə idi, həm də sürətli müharibə idi. Heç kim müharibəyə gedəndə orden, medal siyahısına adımı "yazım-yazdırım" kimi şeyləri düşünmürdü. Məqsədimiz Qarabağı azad etmək idi. Əgər biz 30 il Qarabağın azad olunmasına dözə bildiksə, 1-2 ay və yaxud da 6 ay medalımızın gəlməsini və ya siyahıların dəqiqləşməsini gözləyə bilərik. Bu məsələdə səbirli olmağımızda fayda var".

> *"Nəzərə almaq lazımdır ki, bu, bir müharibə idi, həm də sürətli müharibə*

✍ **Sevinc**

---

MÜSAHİB

## Zəngəzur və Laçın dəhlizlərini eyniləşdirmək yolverilməzdir



**Elçin Alıoğlu,**
milli.az saytının baş redaktoru, politoloq

***Politoloq, milli.az saytının baş redaktoru Elçin Alıoğlu Hafta.az-a müsahibəsində ötən həftənin bir sıra mühüm olayları, o cümlədən Füzuli və Zəngilan rayonlarının mina xəritələrinin verilməsi, Putinlə Makron arasındakı telefon danışığında Qarabağ məsələsi, Zəngəzur dəhlizinin açılması və s. haqda danışıb. Laçın dəhlizinin və Yuxarı Qarabağın Azərbaycanın nəzarətində olmayan hissəsinin gələcək taleyi barədə proqnozlarını verib.***

*Ermənistan istəsə də, istəməsə də, beynəlxalq qurumlar nə desələr belə, bu dəhliz açılacaq*

▸▸ Səh. 3

---

MÜSAHİB



**Tofiq Zülfüqarov,**
sabiq xarici işlər naziri, politoloq

■ Qarabağda ermənilərin yaşaması qeyri-mümkündür...

■ Rusiyanın Qarabağdakı rejimə dəstəyi getdikcə azalacaq...

■ İlk növbədə köçkün soydaşlarımızın işğaldan azad torpaqlara qayıdışını və daimi məskunlaşmasını təmin etməliyik...

▸▸ Səh. 2

---

GÜNÜN FOTOSU...



"Zəfər yolu"nun asfaltlanmasına başlanıldı...

---

GÜNÜN SİTATI



*"Gələn ilin yanvar ayında Zəngilanda yaradılan "ağıllı kənd" hazır olacaq. Bu ərazilərdə beynəlxalq hava limanları da tikilir. Füzulidə hava limanının bu il sentyabrın 5-də açılacağı gözlənilir"*

**Elnur Məmmədov,**
xarici işlər nazirinin müavini

---

KARİKATURA




Delta plus-un bir addımlığında...

---

## "Eldar Həsənov bizimlə görüşüb onu dəstəkləməmizi istədi"

**Ağasif Şakiroğlu,**
Gələcək Azərbaycan Partiyasının sədri

İndi bəzi siyasətçilər daxildən yox, daha çox xarici siyasətdən danışırlar. Beynəlxalq siyasətdən danışmaq asandır axı.

▸▸ Səh. 5

---

STATİSTİKA



■ **Azərbaycanda pandemiyadan zərər çəkən sahələrə dəstək tədbirləri çərçivəsində mövcud kredit portfeli üzrə faizlərin subsidiyalaşdırılması mexanizmi üzrə sahibkarlardan indiyədək 5 463 müraciət daxil olub.**

Bunlardan 4 497-nə (82,3%) subsidiyanın verilməsi barədə müsbət qərar qəbul edilib. Təsdiqlənən subsidiyanın məbləği 57 mln. manatdır.

---



▸▸ Səh. 5

# Mina xəritələrinin təhvil alınması

## Hərbi və siyasi baxış

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Şəmkir və Tovuz rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Şəmkir və Tovuz rayonlarının əhalisi 105153 nəfər olan 17 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğdən 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb. Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

***

***Ölkəmizin şəhər və rayonlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən dövlət xidmətlərinin keyfiyyəti, biznes və investisiya mühiti yaxşılaşdırılmış, əhalinin rifah halı yüksəlmişdir.***

Ardıcıl olaraq həyata keçirilmiş məqsədyönlü islahatlar və genişmiqyaslı tədbirlər ölkəmizin iqtisadi və hərbi-müdafiə qüdrətini daha da gücləndirmiş və 44 günlük Vətən müharibəsində parlaq qələbənin qazanılmasına güclü zəmin yaratmışdır. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1.Azərbaycan Respublikasının iqtisadi rayonlarının aşağıdakı bölgüsü təsdiq edilsin:

1.1.Bakı iqtisadi rayonu (Bakı şəhəri);

1.2.Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları);

1.3.Abşeron-Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları);

1.4.Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları);

1.5.Gəncə-Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları);

1.6.Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları);

1.7.Qazax-Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları);

1.8.Quba-Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları);

1.9.Lənkəran-Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları);

1.10.Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları);

1.11.Mil-Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları);

1.12.Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları);

1.13.Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları);

1.14.Şirvan-Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

2.Müəyyən edilsin ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir.

3.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

ELAN

**Əziz oxucular...**

**"Həftə içi" qəzeti iyul ayının 1-dən etibarən həftədə bir dəfə cümə axşamı günləri satışda olacaq. Köşklərdən əldə edə bilərsiz.**

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

**Təsisçi və baş redaktor: Sevinc Seyidova**

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

**Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000**

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Qarabağda ermənilərin yaşaması qeyri-mümkündür

## Müsahib

***Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov hafta.az-a növbəti müsahibəsində Rusiya lideri V.Putinin SSRİ-nin bərpası və Qarabağ haqqındakı son açıqlamalarına münasibət bildirib, Azərbaycanın keçmiş Dağlıq Qarabağa münaqişənin başlandığı sovet dövründəki təsir gücü ilə 44 günlük müzəffər savaşımızdan sonrakını müqayisə edib, eləcə də dövlətimizin Xankəndi, Xocalı, Əsgəran və s. məntəqələrimiz üzərində ki yurisdiksiyasının bərpasının mümkün yollarından bəhs edib.***

***- Tofiq müəllim, iyunun 30-da Rusiya Prezidenti Vladimir Putin ənənəvi illik suallara birbaşa cavabları zamanı Sovet İttifaqını yenidən qurmağın mənasız olduğunu və praktik olmadığını dilə gətirib. Onun çıxışındakı bəzi incə məsələlər diqqəti cəlb edir. Birincisi, o, artıq dəfələrlə dediyi fikri bir daha təkrarlayıb və hazırda hər biri müstəqil dövlət sayılan keçmiş müttəfiq respublikalarının ərazisini birbaşa olmasa da, dolayısıyla "tarixi Rusiya torpaqları" adlandırıb. Halbuki, XVIII-XX əsrlərdə həmin ərazilər işğal olunub. Yəni bu fikirdən belə nəticə çıxır ki, Azərbaycan Respublikası və o cümlədən hazırda Rusiya qoşunlarının yerləşdiyi keçmiş Dağlıq Qarabağ ərazisinin bir hissəsi də, eləcə Gürcüstan da, onun Abxaziya, Cənubi Osetiya kimi əraziləri və s. "tarixi Rusiya torpaqları"dır Siz necə şərh edərdiniz Rusiya dövlət başçısının bu fikirlərini?***

- Əvvəla, Putin Azərbaycanın və ya keçmiş Dağlıq Qarabağın tarixi Rusiya ərazisi olduğunu birbaşa söyləməyib. Odur ki, onun keçmiş SSRİ ərazisini "tarixi Rusiya torpaqları" hesab etməsindən narahat olmağa dəyməz. İkincisi də əsas Rusiya liderinin bəhs etdiyiniz tədbirdə Qarabağ haqqında son fikirlərinə diqqət etmək gərəkdir. Putin deyib ki, məsələ həll olub, qalıb Azərbaycan və Ermənistan arasındakı sərhədləri bərpa etmək. Yəni o, çıxışında vurğulayır ki, sovet dövründə iki respublika arasında inzibati sərhədlər olub və bunlar bərpa olunmalıdır... Biz də eyni şeyi deyirik. Sadəcə, ermənilər qəbul etmir. Odur ki, əslinə qalsa, Putinin Qarabağ barədə son açıqlaması da bizim xeyrimizədir...

***- Axı Putin Azərbaycanın bəhs edilən ərazisini, sovet dövründə olduğu kimi, "Dağlıq Qarabağ" adlandırır və bununla paralel Azərbaycanla Ermənistan arasındakı sovet dövründəki sərhədlərin bərpasından danışır?***

- Bilirsiniz, Rusiya başçısının keçmiş müttəfiq respublikaların ərazilərinin "tarixi Rusiya torpaqları" olması haqqında fikirləri siyasi çəkisi olmayan ifadələrdir. Birincisi, hamı bilir ki, artıq SSRİ-nin bərpası mümkünsüzdür. İkincisi, əlbəttə, Putin emosional baxımdan özünü SSRİ-nin dağılmasıyla barışmayan kimi göstərir və bunu ötən çıxışlarından birində "geopolitik fəlakət" adlandırıb, amma reallığı, digər siyasətçilər kimi, o da yaxşı anlayır... Bunu Rusiya-Belarus ittifaqının alınmaması, əksinə, iki dövlət arasında müəyyən gərginliklərin yaranması təcrübəsi də göstərdi. Buraya Rusiyanın Ukrayna, Gürcüstan və s. keçmiş müttəfiq respublikalarla münasibətlərindəki gərginliyi də əlavə etsək, hər şey aydın olar... Üçüncüsü, hesab edirəm ki, Putinin, artıq neçənci dəfə keçmiş SSRİ-ni "tarixi Rusiya torpaqları" adlandırması daxili vəziyyəti ağırlaşan bir çox ölkələrdə işlənən siyasi metodun təzahürüdür.

Yəni, belə çıxışlar, adətən, daxili auditoriyaya hesablanır. Hazırda ciddi siyasi-iqtisadi böhran yaşayan Rusiyanın rəhbəri belə çıxışları ilə vətəndaşları "Rusiya böyükdür, nəhəngdir, hamıdan güclüdür, keçmiş ərazilərini də bərpa edəcək" kimi illüziyalara qapdırmaqla başını qatmağa çalışır... İngilis gəmisi ilə bağlı son məsələ də göstərir ki, artıq Kremlə edilən təzyiq artmaqdadır. Təbii ki, buna cavab olaraq çox zaman belə populist bəyanatlar səslənməlidir.

***- Bir çox şərhçilər hesab edir ki, hazırda Azərbaycanın əsas hədəfi Zəngəzur dəhlizi olmalı, Yuxarı Qarabağın Xankəndi, Xocalı, Əsgəran, Ağdərə və s. ərazilərində yurisdiksiyamızın bərpası ilə bağlı hələ bir müddət səbir göstərməliyik. Bəs həmin müddət ərzində Rusiya və digər xairci güclərin dəstəklədiyi düşmən qüvvələr adekvat tədbirlər görərsə, bu, bizim üçün problem yaratmaz ki?***

- Hesab edirəm ki, son dövrdə ABŞ-ın Əfqanıstandan çıxması və orada Türkiyəyə önəmli rol verilməsi məsələsinin regionda bir sıra parametrlərdə dəyişikliklərə səbəb olması Azərbaycanın həm Zəngəzur dəhlizi, həm də Yuxarı Qarabağdakı problemlərin həllinə də öz təsirini göstərəcək. Nəzərə alaq ki, Əfqanıstanda Türkiyə kontingentinin tərkibində Azərbaycan sülhməramlıları da xidmət keçir Bəs Əfqanıstanın əhəmiyyətinin artmasının bizə dəxli nədən ibarətdir? Əvvəla, yadımıza salaq ki, Ermənistan əsrlər boyu Rusiya imperiyasının geo-siyasi oyunlarının aləti olub. İndi isə coğrafi baxımdan digər gərginlik zonaları yaranır ki, onlar Rusiya siyasətinə daha təsirli nöqtələrdir. Məsələn, Ukrayna-Türkiyə hərbi əməkdaşlığı Neçə illərdir ki, Qərb, ABŞ vəd etsə də, Ukraynaya müdafiə silahından savayı bir şey verməyib. Türkiyə artıq bu ölkəyə zərbə PUA-larını satmağa başlayıb. Odur ki, bu mövzu Rusiya üçün də geosiyasi baxımdan çox ciddi mövzudur. İndi isə həmin mövzuya Orta Asiya, Tacikistan, Əfqanıstan mövzuları əlavə olunur. Ona görə də Ermənistan geosiyasi aktuallığını tamamilə itirir. Həmişə olduğu kimi, Ermənistanın siyasi ambisiyaları qurban verilir. Elə indi də aqibəti eyni olacaq. Ona görə də hesab edirəm, Zəngəzur məsələsi həll olunacaq və eks-territorial dəhliz açılacaq. O ki qaldı, Xankəndi və Yuxarı Qarabağın digər yaşayış məntəqələrinin məsələsinə, bəli, bir sıra xarici qüvvələr çalışır ki, elə əsas gərgin problemlər məhz Qarabağ bölgəsində olsun. Başa düşürük ki, həmin istəklərin reallaşıb-reallaşmaması birmənalı olaraq Rusiyanın mövqeyindən asılıdır. Bu şəraitdə Azərbaycanın siyasi baxımdan əsasən iki yolu var; ya qarşıdurma, konfrontasiya yolunu seçməli, ya da siyasi-diplomatik dialoqu davam etdirmək və böyük bir geosiyasi alverin hansısa məqamını gözləyərək, öz siyasi məqsədlərinə nail olmaqdır. Zənnimcə, ikinci yol bizim üçün daha uğurlu ola bilər.

> ***Rusiyanın Qarabağdakı rejimə dəstəyi getdikcə azalacaq***
>
> ***İlk növbədə köçkün soydaşlarımızın işğaldan azad torpaqlara qayıdışını və daimi məskunlaşmasını təmin etməliyik***

***- Bəs Yuxarı Qarabağın qalan hissəsinin azad olunması məsələsində siyasi-diplomatik yol seçməyimiz yenə də ATƏT-in Minsk Qrupunun 30 illik başqatması kimi onillərlə, 20-30 il vaxtımızı almaz ki?***

- Bilirsiniz, ekstrasens və ya falçı deyiləm, söyləyəm ki, məsələ 2-3 ay və ya 2-3 il, yaxud 4-5 il ərzində həllini tapacaq Bütün hallarda göz önündə olan bir neçə gerçəklik var. Əvvəla, məlumdur ki, Yuxarı Qarabağdakı separatçı meyillərin mənbəyi əsasən Ermənistandır. Odur ki, hazırda Azərbaycanın əsas vəzifəsi Ermənistandan gələn siyasi-ideoloji dəstəyin və potensial köməyin qarşısını almaqdır. Yuxarı Qarabağdakı separatçı rejim tam şəkildə izolyasiya şəraitinə düşməlidir. Bunun üçün isə ilk növbədə, köçkün soydaşlarımızın işğaldan azad torpaqlara - Kəlbəcərə, Laçına, Qubadlıya, Ağdama və s. qayıdışını və daimi məskunlaşmasını təmin etməliyik. Bu prosesi tezləşdirməli və sürətləndirməliyik. Yəni Qarabağın ermənilər yaşayan hissəsinin, Xankəndi, Xocalı, Əsgəran, Ağdərə və s. ətrafında Azərbaycanın real varlığı ciddi şəkildə hiss olunmalıdır. Bu mənada məskunlaşdırma məsələsi ən aktual məsələdir. Gələcəkdə hansısa siyasi, yaxud hərbi hücumlara hazır olmaq üçün həmin ərazidə mövqelərimizi hazırlamalıyıq.



**Tofiq Zülfüqarov,**
sabiq xarici işlər naziri,
politoloq

***- Tofiq müəllim, siz 1990-1991-ci illərdə Yuxarı Qarabağda, Xankəndidə işləmisiniz. Sizcə, o dövr Azərbaycanının oradakı proseslərə təsir imkanları ilə indiki arasındakı fərqli və oxşar cəhətlər hansılardır? Məsələn, bilirik ki, o illərdə Xankəndidəki Təşkilat Komitəsində xeyli azərbaycanlı məmur və milis də işləyirdi. Eləcə də onların çalışdıqları binanın üzərində o dövrdə Azərbaycana məxsus bayraq dalğalanırdı.***

- Bəli, o zaman Elmlər Akademiyasında çalışırdım. Bizi Qarabağa ezam etdilər. Vəzifəmiz analitik işlər aparmaq, təbliğatı təşkil etmək və s. idi. Açığını deyim ki, o vaxt xeyli işlər görüldü. Sonra Sovet İttifaqı dağıldı, vəziyyət dəyişdi və təəssüflər olsun ki, Azərbaycan separatçı və işğalçı ermənilərlə birbaşa mübarizəyə hazır olmadı.

O da düzdür ki, 1990-1991-ci illərdə Xankəndidəki Təşkilat Komitəsində ruslarla yanaşı, xeyli azərbaycanlı da çalışırdı. Yerləşdiyimiz keçmiş vilayət partiya komitəsinin binası üzərində Azərbaycan SSR-in bayrağı dalğalanırdı Oxşar cəhətlər də var, fərqli cəhətlər də Əsas fərq ondan ibarətdir ki, hazırda Xankəndi və ümumiyyətlə, Yuxarı Qarabağ ətrafındakı hərbi gücümüzün varlığı çox ciddi amildir. İkincisi, bütün aparıcı dövlətlər və beynəlxalq qurumlar keçmiş Dağlıq Qarabağ ərazisini birmənalı olaraq Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Bu da çox prinsipial cəhətdir.

İndi əsas məsələlərdən biri Qarabağda Azərbaycan vətəndaşı kimi qalacaq ermənilərin yaşaması üçün şəraitin Azərbaycan tərəfindən yaradılmasıdır. Təəssüf ki, bu sahədə bizim təsir mexanizmləri tam olaraq işə salınmayıb. Azərbaycan dövlətinin birbaşa Xankəndi, Xocalı, Əsgəran və s. məntəqələrdəki proseslərə birbaşa müdaxilə etməsi ermənilərin radikal separatçı kəsimi üçün növbəti münaqişənin başlanmasına bəhanə ola bilər. Odur ki, istəyirik, bütün məsələlər siyasi-diplomatik yollarla həllini tapsın. Hesab edirəm ki, öncə dediyim kimi, Yuxarı Qarabağdakı ermənilər üzərində Azərbaycan dövlətinin real təsirini əldə etmək üçün köçkün soydaşlarımızın işğaldan azad ərazilərə qayıdışı və məskunlaşdırılması prosesi tezləşdirilməli və sürətləndirilməlidir.

Bir məsələni də vurğulayım ki, Azərbaycanın qalib olduğu müharibədən sonra Qarabağdakı ermənilərin məhsul əldə etmək üçün istifadə etdiyi məhsuldar torpaqların sahəsi yarıbayarı, bəlkə də daha çox azalıb. Yəni kənd təsərrüfatı üçün onların imkanları çox məhdudlaşıb. İkincisi və ən əsası, Qarabağda ermənilərin sayı getdikcə azalır. Bunun da səbəbi odur ki, onlar üçün iş yeri, yaşayış üçün qazanc mənbələri yoxdur.

Birinci Qarabağ müharibəsindən öncə Azərbaycanla iqtisadi cəhətdən də sıx bağlı olan bu region ermənilərin özlərinin başlatdığı separatçı hərəkat sayəsində ölkəmizdən ayrıldıqdan sonra tamamilə iflasa uğradı. 30 ilə yaxın işğal müddətində də Qarabağı iqtisadi baxımdan Ermənistana bağlaya bilmədilər. Ona görə dolana bilməyən sadə ermənilər xarici ölkələrə köçməyə, miqrasiya etməyə başladılar. 10 Noyabr razılaşmasından sonra Rusiyanın onların xeyli hissəsinin Ermənistandan geri qayıdışını təşkil etməsinə rəğmən həmin miqrasiya prosesi indi də davam edir, çünki yaşamaq üçün real iqtisadi əsaslar yoxdur, orada iqtisadi gələcək görünmür. Təbii ki, belə halda Qarabağda adamların qalıb yaşaması qeyri-mümkündür.

***- Xankəndi, Xocalı, Əsgəran və s. məntəqələrimiz üzərində yurisdiksiyamızın bərpası məsələsində siyasi-diplomatik vasitələrlə yanaşı, iqtisadi-sosial mexanizmlər də əsas rol oynamalıdır?***

- Bəli, elədir. Onu da əlavə edim ki, Ermənistandakı kimi, Qarabağdakı ermənilərə də, oradakı separatçı rejimə Rusiyanın dəstəyi getdikcə azalacaq. Nəyə görə? Söhbətimizin əvvəlində qeyd etdik ki, Rusiyanın Türkiyə ilə iqtisadi və siyasi formatda əməkdaşlıq etdiyi coğrafi nöqtələrin sayı artır. Həmin sırada Ermənistan yoxdur demək olar ki. Bu ölkə Rusiya üçün hərbi-siyasi baxımdan öz əhəmiyyətini tamamilə itirib.

- Bütün bunlara rəğmən Qarabağdakı separatçı-terrorçu rejim hələ də "beynəlxalq tanınma"dan-filandan dəm vurur. Dünyadakı müəyyən qüvvələr də öz çirkin məqsədləri üçün onlara dəstək verməyə girişirlər. Məsələn, bu günlərdə fəxrlə xərbərlər tirajlayırlar ki, ABŞ-ın artıq 10-cu ştatı - Nyu-Cersi qondarma "Artsax"ın "müstəqilliyi"ni "tanıdı".

- Anlamalıyıq ki, həll etməkdə olduğumuz münaqişə bir sıra beynəlxalq oyunçular tərəfindən bizə və Ermənistana bir təsir və təzyiq vasitəsi kimi əvvəl də istifadə olunubsa, indi də bu cəhdlər davam edir.

Odur ki, həmin prosesi davam etdirmək üçün hansısa görüntü yaradılmalıdır. Ona görə də Rusiya hərbi kontingenti Qarabağda hansısa təmir və yardım işləri aparır, onların uşaqlarına tarix, mədəniyyət dərsləri keçir və s. Aydın görürük ki, bütün bunlar ötəridir, çünki iqtisadi əsaslar yoxdur. Qarabağdakı adi bir erməni götürək, o düşünür ki, mənim övladım burada sabah hansı gələcəyi əldə edəcək. necə təhsil alacaq, necə dolanacaq. Odur ki, deyir, sizin müharibəniz də, torpağınız da mənə lazım deyil, yaxşısı budur, çıxıb gedib haradasa özümə və övladlarıma normal həyat qurum.

Rusiya birbaşa Qarabağda ola-ola ciddi bir iş görə bilmədiyi halda Qərbdəki ABŞ-dakı müəyyən qüvvələr də guya siyasi gedişlərlə Qarabağdakı ermənləri təsir altında saxlamağa cəhd edirlər. Odur ki, hansısa ştatların qondarma "Artsaxı" "tanıtma" mexanizmini işə salıblar. İndi guya ki, Nyu-Cersi ştatı Qarabağın "müstəqilliyi"ni tanıyıb. Əvvələ, bunun heç bir siyasi və hüquqi əsası yoxdur. Bu, ona bənzəyir ki, Azərbaycanın, məsələn, Lerik rayonu Nyu-Cersi ştatını ABŞ-ın yox, Kubanın tərkib hissəsi kimi tanıyır.

✍ ***Sultan***

# Zəngəzur və Laçın dəhlizlərini eyniləşdirmək yolverilməzdir

## Müsahib

***Politoloq, milli.az saytının baş redaktoru Elçin Alıoğlu Hafta.az-a müsahibəsində ötən həftənin bir sıra mühüm olayları, o cümlədən Füzuli və Zəngilan rayonlarının mina xəritələrinin verilməsi, Putinlə Makron arasındakı telefon danışığında Qarabağ məsələsi, Zəngəzur dəhlizinin açılması və s. haqda danışıb. Laçın dəhlizinin və Yuxarı Qarabağın Azərbaycanın nəzarətində olmayan hissəsinin gələcək taleyi barədə proqnozlarını verib.***



**Elçin Alıoğlu,**
milli.az saytının baş redaktoru, politoloq

***- Elçin bəy, ötən həftənin sonunda diqqətçəkən siyasi olaylardan biri də iyulun 2-də Rusiya Prezidenti Vladimir Putinlə fransız həmkarı Emmanuel Makron arasında telefon danışığı oldu. Rusiya Prezidenti hərbi əməliyyatlardan əziyyət çəkmiş rayonların əhalisinin humanitar problemlərinin həllində avropalı tərəfdaşların, xüsusilə də Fransanın daha sıx iştirakının zəruri olduğunu vurğulayıb. Eyni zamanda, prezidentlər ATƏT-in Minsk qrupunun səyləri də daxil, münaqişələrin tənzimlənməsinin müxtəlif aspektlərini əlaqələndirməyə hazır olduqlarını ifadə etdilər... Bu, faktiki olaraq 44 günlük savaşboyu ermənipərəst mövqeyini açıq-aşkar nümayiş etdirmiş Fransanın Putin tərəfindən Qarabağdakı ermənilərə həm maliyyə, həm də birbaşa ərzaq, geyim və s. yardım etməsinə dəvət anlamına gəlir. Sizcə, Rusiya və Fransa liderlərinin son telefon danışığının Qarabağla bağlı hissəsinin açması nədir?***

- Məlumdur ki, hazırda 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə imzalanmış üçtərəfli bəyanat qüvvədədir və bu sənədi kimsə dəyişməyib. Həmin sənəd imzalanandan sonra Cənubi Qafqaz bölgəsində faktiki olaraq iki aktiv oyunçu var: biri Rusiya, digəri Türkiyədir. Rusiya Fransa ilə bahəm ATƏT-in həmsədr ölkələrindən biri olduğuna görə, təbii ki, Putin Makronu bu prosesə müəyyən mənada hər hansı formada cəlb etmək niyyətindədir. Düşünmürəm ki, ATƏT-in Minsk Qrupunun fəaliyyəti əvvəlki formatda, yəni ABŞ-Rusiya-Fransa formatında bərpa olunsun. Əslində, Rusiyanın özü də bunda maraqlı deyil. Azərbaycan-Ermənistan münaqişəsinin həll edilməsində Rusiya vasitəçi və moderator rolunu oynayır və həmin rolu heç vaxt könüllü olaraq Fransaya verən deyil.

Eyni zamanda, Putinlə Makron arasındakı danışıqlar Cənubi Qafqazda Türkiyənin güclənməsinə imkan verməmək məqsədi güdür. Bunun üçün də bəlli addımlar atılır və bundan sonra da atılacaq. Rusiya geosiyasi olaraq Cənubi Qafqazı tərk etmək niyyətində deyil. Tam əksinə, bu, regionda təsir rıçaqlarının və hadisələrə bütün müdaxilə imkanlarının çeşidini və məzmununu daha da artırmaq və gücləndirmək niyyətindədir. Məhz bu səbəbdən, Putin tərəfindən Makrona edilən təklif ilk baxışdan ekspozitiv təsir bağışlasa da, əslində çox ciddi məqamlardan xəbər verir...

***- Tutaq ki, Fransanın humanitar yardım karvanı Ermənistandan Azərbaycanın rəsmən nəzarət edə bilmədiyi Laçın dəhlizinə yaxınlaşır və Rusiya hərbçiləri onu buraxır. Azərbaycan Dövlətinin buna reaksiyası necə olacaq?***

- Əvvəla, rəsmi Paris bundan sonra Qarabağ məsələsinə hər hansı bir formada siyasi müdaxilə edə bilməz. Vətən müharibəsi günlərində Fransa hakimiyyəti, o cümlədən icraedici və qanunverci hakimiyyət Qarabağ münaqişəsi ilə bağlı mövqelərini açıq şəkildə nümayiş etdirdi. Bəlli oldu ki, bu, aşkar ermənipərəst mövqedir. Azərbaycan heç vaxt imkan verməyəcək ki, Fransa bundan sonra da qərəzli, subyektiv və tərəfli mövqeyi ilə bu münaqişənin hər hansı formada nizamlanmasında əvvəlki kimi iştirak etsin. Fransa artıq tərəf tutub və subyektiv, qərəzli olduğunu isbatlayıb.

Bu, öz yerində... İkincisi, Fransa istədiyi qədər ermənilərə humanitar yardım edə bilər. Bu ölkə Qarabağdakı ermənilərə ərzaqdolu, hətta bir yox, 100 ağırtonnajlı maşın göndərə bilər. Bu, heç nəyi dəyişməyəcək və dəyişə də bilməz. Sadəcə, Fransanın tərəf tutmaqda məqsədi bəllidir. Fransa Prezidenti Makron son praymerizlərdə uduzub və o, Fransada yaşayan 513 min ermənının səsini almaqda maraqlıdır.

Məhz bu səbəbdən, Makron aşkar erməniperəst siyasət yürüdür və ermənilərdən daxili siyasətdə bir vasitə, marionet, bir kukla kimi istifadə edir. Yəni Fransanın və konkret Emmanuel Makronun heç vaxt Ermənistana sevgisi olmayıb. Sadəcə, ermənilər həmişə, tarixboyu olduğu kimi, alət olaraq istifadə edilir, onlara vədlər verirlər və sonra da aldadırlar. Şübhə yoxdur ki, bu dəfə də Fransa Ermənistanı aldadacaq. Dünyadakı böyük güclərin hər biri geosiyasi anlamda bu və ya digər məqamlardan yararlanaraq öz maraqlarını təmin edirlər.

Çin iqtisadi gücdən istifadə edir, ABŞ demokratiya adı ilə, pərdəsi ilə dünyanın müxtəlif ölkələrində öz maraqlarını təmin edir. Fransa isə mədəniyyət ekspansiyası adı altında Afrikada, Cənubi Amerikada, Yaxın Şərqdə geosiyasi istilalarını həyata keçirmək niyyətindədir.

O cümlədən də Cənubi Qafqazda... Bu ölkə frankofoniya çərçivəsində Ermənistanda da fəal işləməyə çalışır. Yəni Fransanın məqsədi Qafqazda möhkəmlənmək, bu regiondan siyasi, hərbi, iqtisadi və digər dividendlər əldə etməkdir...

Odur ki, Laçın dəhlizindən humanitar yardım karvanının buraxılmasında qeyri-adi və anormal heç nə yoxdur. Dediyim kimi, fransızlar istədikləri qədər humanitar yardım daşısınlar. 10 Noyabr razılaşmasına görə, Rusiya sülhməramlıları Laçın dəhlizinə tam nəzarət etməlidirlər.

Bu, nə deməkdir? Əgər Fransanın həmin humanitar yardım adı altında Qarabağ ermənilərinə silah-sursat, yaxud hərbi ammunisiya, hərbi geyimlər, zirehli gödəkcələr, dəbilqələr və s. göndərməsi aşkarlansa, o yardımlar mütləq və dərhal dayandırılacaq və geri qaytarılacaq. Ən yaxşı halda belə olacaq. Hazırda Rusiya sülhməramlıları Laçın dəhlizində hərbçilərin, hərbi geyimdə olan adamların, xüsusilə silah və texnikanın Azərbaycan ərazisinə keçməsinə imkan vermirlər. Bunu tam əminliklə, canlı şahid kimi deyirəm...

> *“Ermənistan istəsə də, istəməsə də, beynəlxalq qurumlar nə desələr belə, bu dəhliz açılacaq*

Bir sözlə, Fransa istəsə, Qarabağa humanitar yardım göndərə bilər. Bu da var ki, Qarabağ erməniləri nə vaxta qədər humanitar yardımla dolanacaqlar?

Məlumdur ki, II Qarabağ savaşı nəticəsində Qarabağdakı ermənilər əkin və otlaq yerlərinin 84 faizini, içməli su mənbələrinin 91 faizini, elektrik enerjisi istehsalı və təminatı vasitələrinin 91 faizini, dağ-mədən, faydalı qazıntı yataqlarının 98 faizini, meyvə bağları, tərəvəz bostanlarının və s. 83 faizini, daimi gəlir yeri kimi sayıla biləcək kiçik və orta aqrar emalı və sənaye müəssisələrinin 79 faizini və s. itiriblər. Fransızlar, ruslar, həbəşlər, nə bilim, avstraliyalılar hər gün 12 yük maşını ilə pul daşısalar belə, Qarabağ erməniləri bunu hara xərcləyəcəklər? İş yerləri yox, sənaye istehsalı yox, heç nə yoxdur... Sadəcə, orada bu saat olan 13 min 416 nəfər Qarabağ ermənisi var ki, onlar da köç ərəfəsindədirlər.

***- Siz deyirsiniz ki, Rusiya sülhməramlıları Laçın dəhlizindən hərbçilərin, hərbi geyimdə olan adamların, xüsusilə silah və texnikanın Azərbaycan ərazisinə keçməsinə imkan vermirlər. Axı bu günlərdə Bakıdakı məhkəmədə erməni diversantlardan biri etiraf etdi ki, onlar Ermənistandan gələndə Laçın dəhlizindəki rus hərbçilər onların yoxlanılmadan Azərbaycan torpaqlarına keçməsinə şərait yaradıb?..***

- Bəli, o vaxt həmin terrorçular Rusiya hərbçiləri tərəfindən buraxılmışdılar. Bundan sonra Azərbaycan tərəfi Rusiya sülhməramlılarına çox ciddi xəbərdarlıq etdi və bu məsələ müzakirə olundu. Eyni zamanda, Rusiya sülhməramlılarının hazırda operativ fəaliyyət nəzarətində olan ərazilərdə Qarabağdakı separatçı-terrorçu rejimin silahlı birləşmələrinin müəyyən qismi qalıb. Onların da əlində yüngül və orta çaplı atıcı silahlar, minaatanlar, toplar var. Və təbii ki, ermənilər terrorçuluq və diversiya fəaliyyəti üçün həmin arsenaldan istifadə edə bilərlər və edəcəklər. Bunun qarşısı alınmalıdır. Və biz bu məsələni qaldırmalıyıq ki, Qarabağdakı terrorçu rejim bütünlüklə tərk-silah olunmalıdır. Orada heç bir ağır texnika yerləşdirilməməlidir, yalnız və yalnız milis dəstələri qala bilər. Qarabağlı ermənilər atıcı silahlarla asayişi qorumaq üçün milis funksiyalarını yerinə yetirə bilərlər. O vaxta qədər ki, Azərbaycanın yurisdiksiyası bərpa olunacaq və həmin iş dövlətimizin müvafiq qurumlarına həvalə ediləcək...

***- Sizin sözlərinizdən həm də belə nəticəyə gəlmək olur ki, Azərbaycanın hazırda Laçın dəhlizinə hər hansı açıq və ya gizli nəzarət mexanizmi mövcuddur...***

- Hazırda Laçın dəhlizinə həm açıq, həm də digər formalarda nəzarəti həyata keçiririk... Bu nəzarət müxtəlif formalarda olur. Laçın dəhlizi bizim üçün şəffafdır. Laçın dəhlizi Azərbaycn üçün “qara dəlik” deyil. Oradan keçən hər avtomobili və nəinki hər avtomobili, hər şəxsi belə, görə bilirik... Sadəcə, bunu deyə bilərəm....

***- Son vaxtlar bir sıra siyasətşünaslar, o cümlədən ictimaiyyət nümayəndələri vurğulayırlar ki, Zəngəzur dəhlizi dünya gücləri üçün çox əhəmiyyətlidir. Bu halda belə çıxmırmı ki, Laçın dəhlizinin kimin nəzarətində olması həmin supergüclər üçün prinsipial əhəmiyyət daşımır?***

- Təəssüf ki, bizim media Laçın dəhlizi ilə Zəngəzur dəhlizini müqayisə edərək bilməyərəkdən ermənilərə sərf edən fikirlər yayımlayır. Birdəfəlik bilmək lazımdır ki, Laçın dəhlizi ilə Zəngəzur dəhlizi aynalı inikas, yəni bərabərhüquqlu deyil. Laçın dəhlizinin açılması sırf humanitar məqsədlər üçündür və bu da müvəqqəti xarakter daşıyır. Yaxın bir neçə il ərzində Laçın şəhərinin yanından ötməklə Laçın dəhlizi üçün ayrıca yol çəkiləcək. Yəni həmin yol artıq Laçın şəhərindən keçməyəcək. Zəngəzur dəhlizi isə Vətən müharibəsi başa çatdıqdan sonra imzalanmış üçtərəfli bəyanatda dəqiq təsbit olunmuş şərt və tələbdir. Yəni Ermənistan istəsə də, istəməsə də, beynəlxalq qurumlar nə desələr belə, bu dəhliz açılacaq. Bu, nə beynəlxalq qurumlardan, nə də Ermənistandan asılıdır. Bu, bəyanatın şərtidir, hərbi əməliyyatların dayandırılmasının şərtlərindən biri olub. Əgər Ermənistan hakimiyyəti bu şərti icra etməzsə, icraedici mexanizmlərin fəaliyyətinə qarşı çıxarsa, Azərbaycan bəyanatda imzalanmış müddəanın həyata keçirilməsi üçün bütün gərəkli yollara əl atacaq.

Bundan başqa, Zəngəzur dəhlizinin açılmasında Azərbaycandan daha çox Rusiya, Britaniya, ABŞ, Çin, Yaponiya və digər ölkələr maraqlıdır. Bu ölkələrin hamısı bəyan edib ki, Zəngəzur dəhlizi açılmalı və nəqliyyat-kommunikasiya xətləri bərpa olunmalıdır. Bu baxımdan, Zəngəzur dəhlizi öz əhəmiyyətinə və yerinə görə Laçın dəhlizindən 100 dəfələrlə önəmlidir. Odur ki, heç bir halda Zəngəzur dəhlizi ilə Laçın dəhlizini üzbəüz qoymaq, eyniləşdirmək, onlar arasında paralel aparmaq yolverilməzdir. Əslində bu, erməni təbliğatıdır.

Bunu ilk dəfə deyirəm, ermənilər bununla bizi provakasiyaya çəkməyə çalışırlar. Onlar bunu bizim beynimizə yeridirlər. Bəzi jurnalistlərimiz də bilmədən təkrarlayırlar ki, Zəngəzur dəhlizi açılmasa, Laçın dəhlizi bağlanacaq. Halbuki, ermənilərin istədiyi də məhz budur. Biz Laçın dəhlizini bağlasaq, 10 Noyabr bəyanatının şərtlərini pozmuş olacağıq və həmin bəyanatın şərtlərinə əməl etməyən ölkə olacağıq. Onda da Ermənistan deyəcək ki, Azərbaycan bu bəyanatı pozursa, biz də ona əməl etmirik. Ona görə də Zəngəzur dəhlizinin formatından asılı olmayaraq, Laçın dəhlizi fəaliyyətdə olacaq. Çalışmalıyıq ki, bəyanatı pozan tərəf Ermənistan olsun, Ermənistan şərtlərdən imtina etsin. Onda dediyimiz mexanizm işə düşəcək...

***- Zəngəzur dəhlizinə böyük əhəmiyyət verən dünya gücləri üçün Laçın dəhlizinin kimin - Rusiya və Ermənistanın, yaxud Azərbaycan və Türkiyənin nəzarətində qalması o qədər də maraqlı deyil. Onlar bununla 8-ci aydır heç bir beynəlxalq mandat olmadan fəaliyyət göstərən Rusiya hərbi kontingentinin limitsiz bir müddətdə orada qalmasına şərait yaradırlar...***

- Bilirsiniz, Laçın dəhlizi ermənilərdən başqa heç kəs üçün əhəmiyyətli deyil, heç Rusiya üçün də əhəmiyyəti yoxdur. Rusiyanın Qarabağda uzun müddət qalacağı, hərbi baza yaradacağı haqqındakı təlaş isə yersizdir.

Rusiya 90 milyonluq Azərbaycan-Türkiyə bazarını, Azərbaycan və Türkiyə kimi geosiyasi gücü cəmi 2,3 milyonluq Ermənistana dəyişən deyil. Ermənistan, artıq Rusiya üçün əhəmiyyətini itirib və faktiki olaraq coğrafi baxımdan Rusiyanın tərkibində olmayan bir quberniyaya çevrilib. Ona görə də Laçın dəhlizinin fəaliyyət və istismar müddətinin məhdudluğu ermənilərə də məlumdur. Sadəcə olaraq Qarabağdakı ermənilərin orada yaşama istəklərinin iki yolu var: ya onlar Azərbaycanın mövcud qanunvericiliyinin tələblərinə əməl edərək Azərbaycan vətəndaşı olacaq, Azərbaycan pasportu alacaqlar, yaxud buna riayət etmək istəmirlərsə, Laçın dəhlizi açıqdır, buyurub Ermənistana gedə bilərlər...

***- Telekanallarda, elektron media və qəzetlərdə çıxış edən siyasi şərhçilərin, demək olar ki, hamısı Ermənistanın həm ötən dəfə Ağdam rayonunun, həm də bu dəfə Füzuli və Zəngilan rayonlarının mina xəritələrini Azərbaycan tərəfinin azad etdiyi erməni diversantların əvəzində verildiyini qeyd edirlər. Yalnız siz öz şərhlərinizdə vurğulayırsınız ki, mina xəritələrinin verilməsinin erməni diversantların buraxılmasıyla heç bir əlaqəsi yoxdur. Bunu hansı əsasla deyirsiniz?***

- Bəli, Azərbaycan mediası şərhçilərə istinadla belə deyir. Bu da qeyri-peşəkarlıqdır. Bir daha deyirəm ki, mina xəritələri heç bir halda mübadilə mövzusu deyil. Biz müharibədən sonra ərazimizdə tutulmuş erməni diversantlarının məhkəmədə ibtidai istintaq zamanı günahlarının olub-olmamasını araşdırırıq.

Bu şəxslərin bir qisminin günahının olmadığı, bilavasitə diversiya, terror, yanğın aktlarında, Azərbaycan hərbçiləri və mülki vətəndaşlarının güllələnərək qətlə yeirilməsində iştirak etmədikləri sübuta yetirilib və onlar da Ermənistana təhvil verilib. Bu, bir humanist addımdır. Biz Ermənistanla insan talelərinə əsaslanmış alver aparmırıq. Bu, bizim siyasətimizə ziddir. Biz erməni deyilik. Sadəcə, Ermənistan bu jestin müqabilində mina xəritələrini sülhməramlı kontingentin komandanı Rüstəm Muradovun vasitəçiliyi ilə bizə təqdim edir. Vəssalam...

***- Məsələ ondadır ki, axı hər iki proses eyni vaxtda, eyni gündə baş verir?***

- Proses, təbii ki, üst-üstə düşür. Bu, üçtərəfli bəyanatdan irəli gələn məsələdir. Proseslərin üst-üstə düşməsində qəribə heç nə yoxdur.

Əksinə, hər şey məntiqlə baş verir. Biz xoşməramlı jest kimi əsirləri azad edirik. 10 Noyabr Bəyanatında göstərilib ki, mina xəritələri verilməlidir. Burada artıq müzakirəyə ehtiyac yoxdur. Odur ki, ermənilər də xəritələri verirlər...

***- Sizcə, mina xəritələrinin verilməsi prosesi bundan sonra da davamlı olacaqmı?***

- İnşAllah, növbədə Kəlbəcər və Laçının mina xəritələridir. Onlar da alınacaq. Ümumiyyətlə, yaxın ayyarım ərzində işğaldan azad edilmiş bütün ərazilərin mina xəritələrinin alınma prosesi başa çatmalıdır. Ondan başqa Ermənistanın işğalı altında qalan Qazağın 7 kəndi tam boşaldılıb. Yaxın müddətdə onlar da Azərbaycana təhvil veriləcək...

***- Elçin bəy, necə düşünürsünüz, Yuxarı Qarabağın qalan hissəsinin azad olunması məsələsində siyasi-diplomatik yol bu dəfə də saqqız kimi uzanaraq növbəti onillərlə vaxta başa gəlməz ki?***

- Qətiyyən. Hazırda bizim üçün ən önəmli məsələ Zəngəzurdur. Həmin dəhliz əlimizdə olandan sonra, Xankəndi məsələsi avtomatik həllini tapacaq. Çinlilərin bir atalar sözü var ki, ağacın gövdəsinə kim nəzarət edirsə, meyvələrini də o dərir... Məsələ onillərlə uzanmayacaq. Digər tərəfdən, nə qədər paradoksal olsa da, onillərlə uzanmaq həm də bizim xeyrimizədir. Qarabağ münaqişəsi bu 30 ilə yaxın müddətdə həllini tapmadıqca iqtisadiyyatımızı yenidən dirçəltmək, ordumuzu faktiki yenidən qurmaq, dünya standartlarına cavab verən ən müasir silahlar və texnika ilə təchiz olunmuş ordu və silahlı qüvvələr yaratmaq üçün bu dövrdən istifadə etdik. Həmin müddət bizi Vətən müharibəsindəki qələbəyə yaxınlaşdırırdı. Biz qətiyyən şübhə etmirdik ki, Qarabağı azad edəcəyik... Bütün ölkə, bütün cəmiyyət, siz, mən, hər birimiz özümüz də bilmədən bunun üçün çalışırdıq.

Nəticədə bu illər ərzində Ermənistan geriyə getdisə, biz irəli getdik. Zaman bizim xeyrimizə işlədi. İndi isə yenə də zaman bizim xeyrimizə işləyir. Xankəndi, Xocalı və s. məsələsinin həllinin onillərlə vaxt alacağına inanmıram. Hər şey çox qısa zamanda həllini tapacaq. Ermənistan bütün sahələrdə - hərbdən tutmuş maliyyə, gömrüyə, sərhədədək çökmüş bir ölkədir. Onun yenidən dirçəlməsinə minimum 30 il vaxt lazımdır. Ən azı, ən yaxşı halda... Təbii ki, bu da mümkün olmayacaq...

✍ ***Sultan Laçın***



***Ermənilərin böyük əksəriyyəti hərbi xidmətə getmək, döyüşmək niyyətində olmayıb. Ermənistanın siyasi-hərbi rəhbərliyi hərbi xidmətdən yayınmaq adı ilə həmin şəxsləri 8 ildən 12 ilədək azadlıqdan məhrumetmə cəzası ilə təhdid etməklə məcburi hərbi xidmətə, döyüşə göndərib.***

# Azərbaycanın humanist yanaşması...

## ...Ermənistanın uzun illər apardığı məkrli siyasətdən əl çəkməsi üçün ciddi səbəbdir

Bu, Azərbaycan ərazisində terror-təxribat və digər əməllər törətməkdə təqsirləndirilən erməni silahlı dəstələrinin 14 üzvünün məhkəməsində bir daha təsdiqləndi. Aydın oldu ki, ittiham olunan şəxslərin əksəriyyəti işsiz və ya işləmək üçün dəfələrlə xarici ölkələrə getmiş şəxslərdir. Bu şəxslərin ifadələri göstərdi ki, erməni ordusunda döyüşənlər yalnız hədə-qorxu ilə orduya cəlb edilənlərdir. Bu şəxslər Ermənistan rəhbərliyinin məkrli, bütün bəşəri dəyərlərə zidd əməllərinin qurbanıdırlar.

**■ Bu fikirləri hafta.az-a millət vəkili Könül Nurullayeva deyib. Onun sözlərinə görə, məlumdur ki, prokuror çıxış edərək təqsirləndirilən şəxslərə verilən ittihamlardan yalnız Cinayət Məcəlləsinim 318-ci (sərhədi qanunsuz keçmə) maddəsi ilə Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviçin 5 il, digərlərinin isə həmin maddə ilə 2 il azadlıqdan məhrum edilməsini xahiş edib. Prokuror çıxışında təqsirləndirilən şəxslərə verilən digər maddələrin ittihamdan xaric edilməsini istəyib:**

“Hökmə əsasən, Avakyan Qraç Arzumanoviç, Serobyan Geğam Samveloviç 4 il, digərləri isə 6 ay azadlıqdan məhrum edilib. Azərbaycan əslində məhkum olunan şəxslərə qarşı humanizm sərgilədi. Ümid edək ki, bu humanist yanaşma Ermənistanı uzun illər apardığı məkrli siyasətdən əl çəkməyə, regionda sabitliyin bərqərar olmasına töhfə verəcək.

Cinayət işində ilk növbədə Ermənistanın hərbi-siyasi rəhbərliyinin Azərbaycana qarşı planlaşdırdığı cinayət əməlləri tam sübut edildi. Bu, Ermənistanın hərbi-siyasi rəhbərliyinin ölkəmizə qarşı terrorçuluq, təxribat hərəkətlərinin məhkəmədə təkzibedilməz sübutlarla təsdiqidir.

Azərbaycan əvvəlcədən də bəyan etmişdi ki, erməni cinayətkarlar mütləq şəkildə törətdikləri cinayət əməllərinə görə cavab verəcəklər. Azərbaycan indiki halda bunu milli səviyyədə həyata keçirdi.

Belə ki, Ermənistan hərbi-siyasi rəhbərliyinin Azərbaycana qarşı törətmiş olduğu cinayət əməllərinə görə cinayət işinin başlanması üçün prokurorun vəsatəti əsasında məhkəmə tərəfindən xüsusi qərar çıxarıldı və prokurorluğa göndərildi. Məhkəmədə ittiham olunan şəxslərə rəhbərlik etmiş Ermənistan Respublikasının vətəndaşı, polkovnik-leytenant Arsen Qazaryan və digər vəzifəli şəxsləri barəsində beynəlxalq axtarış elan edilmişdir”.

✍ ***Azad***

# Rusiya Ermənistanı müharibəyə təhrik edir



**Elxan Şahinoğlu,**
politoloq

**Erməni separatçıları Rusiya hərbçilərinin nəzarət etdiyi bölgəmizdə azərbaycanlı hərbçini yaralayıblar və izahat da vermirlər. Bu xəbərlə paralel mediada Azərbaycanın Rusiyanın yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müşahidəçi statusunda qatılacağı xəbəri də yayılıb.**

Görünən odur ki, Rusiya Azərbaycanı hərbi bloka, Ermənistan isə müharibəyə təhrik edir. Azərbaycan hansı addımı atmalıdır?

**■ Bu istiqamətdə vəziyyəti hafta.az-a şərh edən politoloq Elxan Şahinoğlu əvvəlcə Qarabağda - Ağdam istiqamətində azərbaycanlı hərbçiyə atəş açılması altında hansı mesajların gizlənməsinə diqqət çəkib: “Bu o deməkdir ki, müharibədə məğlubiyyət erməni separatçılarına dərs olmayıb və onlar cinayətlərinə davam etməyə hazırdılar.**

Bu o deməkdir ki, bölgədəki rusiyalı hərbçilər nə erməni separatçılarını tərk-silah edəcəklər, nə də onların cinayətlərinə maneə olacaqlar. Bu o deməkdir ki, Qarabağda yenidənqurma və inşaat işlərində çalışanlar üçün də təhlükə var. Bu o deməkdir ki, gələcəkdə Qarabağa köçürüləcək soydaşlarımızı təhlükə gözləyir. 1980-ci illərin ortalarında da erməni separatizmi oxşar ssenari ilə başlamışdı, ermənilər Xankəndidəki SSRİ hərbi bazalarından əldə etdikləri silahlar hesabına kəndlərimizə hücumlar təşkil etdilər və daha sonra işğalı həyata keçirdilər”.

E.Şahinoğlu hesab edir ki, bütün erməni cinayətlərinin qarşısının alınmasının yeganə yolu Qarabağdakı erməni separatçılarının tamamilə tərk-silah olunmasından keçir.

“Ermənistanla sərhəddə insidentlər tez-tez baş verir, bu təxribatlara alışmışıq və qarşısını alırıq. Bu dəfə atəşkəs Azərbaycanın içərisində pozulub və bu bizim üçün daha mürəkkəb vəziyyətdir, çünki atəş açılan əraziyə nəzarət etmirik. Rusiya hərbçiləri, artıq 7 aydan çoxdur, Qarabağdadırlar və onların erməni separatçılarını tərk-silah etmək planları yoxdur, çünki Moskvadan müvafiq təlimat almayıblar. Belə bir təlimatın gələcəkdə olacağı şübhə doğurur. Demək, özümüz erməni separatçılarını tərk-silah etməyin planını hazırlamalıyıq, başqa alternativimiz yoxdur. Belə görünür ki, Ağdamdakı Rusiya-Türkiyə monitorinq mərkəzindən də nəticə gözləyə bilmərik. Bu mərkəz, sadəcə, Cənubi Qafqazda Rusiya ilə Türkiyə əməkdaşlığının modelidir. Bizə bu azdır. Azərbaycan cəmiyyəti nəticə gözləyir. Müharibədə ona görə qələbə çalmadıq ki, erməni separatçıları silahlarını yenə də bizə tuşlasınlar”.

✍ ***Tahirə***

# Ali məktəbi tez bitirmənin yolları

## Layihə

***Ötən həftə parlamentdə müzakirəyə təqdim olunan "Ali təhsil haqqında" qanun layihəsi cəmiyyətdə də xeyli müzakirələrə səbəb oldu. Qanun layihəsi ətrafında aparılan diskusiyalar isə daha çox bakalavr pilləsində tədris müddətinin 4 ildən 3 ilə, magistratura pilləsində isə 2 ildən 1 ilə endiriləcəyi məsələsi ilə bağlı idi. Qeyd edək ki, sözügedən qanun layihəsi 9 fəsil, 54 maddədən ibarətdir. Layihənin hazırlanması zamanı ölkəmizin təcrübəsi, mövcud olan normativ-hüquqi aktlar, Avropa ölkələrinin ali təhsil sahəsində qanunları, beynəlxalq konvensiyaların müddəaları işçi qrupu tərəfindən geniş araşdırılıb, təhlil edilib.***



**Tədris müddətinin azaldılması təhsilimizin dünya təhsilinə daha sürətli inteqrasiyasına imkan yaradacaq**

Bu qanun Azərbaycanda ali təhsilin yenidən qurulması və Avropa təhsil məkanına ölkəmizdə əldə edilmiş təcrübənin, milli-mənəvi dəyərlərin, milli təhsil sistemimizin qorunması nəzərə alınmaqla tam uyğunlaşdırılması üçün hüquqi baza yaradır. Layihəyə əsasən, ali təhsil 4 səviyyəni müəyyən edəcək.

Bu səviyyələr arasındakı keçidlər kreditlərin toplanması, təhsil müddətlərinin müəyyən edilməsi, əmək bazarının tələblərinə uyğun olaraq peşə standartlarının, peşə standartları əsasında isə ali təhsil proqramlarının hazırlanmasına imkan yaradacaq. Bəs, görəsən, xarici təcrübədə ali təhsilin bakalavr və magistratura pillələrində təhsil müddəti neçə ildir? Ümumiyyətlə, Azərbaycanda hansı ixtisaslar üzrə ali təhsil müddətinin azaldılması və ya artırılması zərurəti var?

Qeyd edək ki, xaricdə bakalavr təhsili ümumiyyətlə, bir çox ölkələrdə və proqramlarda 3-4 il çəkir. Avropada bu müddət 3 ildir. Bəzi mühəndislik şöbələri 4 il çəkə bilər. Bundan əlavə, memarlıq proqramları 5 il, stomatologiya və aptek şöbələri 5 il, tibb təhsili 6 il davam edə bilər. Amerika və Kanadada tibb təhsili fakültə dəyişikliyi səbəbindən 8 ilə qədər davam edə bilər.

Dünyanın top 10 universitetdən 4-nün yerləşdiyi Birləşmiş Krallıqda bakalavr təhsili əsasən 3 il, master təhsili 1 ildir, tibb təhsili 4 il bakalavr və 7 il (maksimum) ixtisas təlimindən ibarətdir. Təhsil ili Sentyabr-Dekabr, Yanvar-May aylarıdır. İki fərqli ixtisas üzrə təhsil almaq istəyənlərə bir çox universitetlər kombinasiya edilmiş ixtisaslar təklif edirlər (məsələn, Fəlsəfə və İngilis ədəbiyyatı). Tələbənin istəyinə uyğun əyani (full-time) və ya qiyabi (part-time) təhsil alma imkanı vardır. Bakalavr dərəcəsini 1-2 ilə bitirmək istəyənlərə qısa kurslar da təklif olunur. İngilis dilini kifayət qədər bilmədikdə universitet təhsilindən öncə hazırlıq (foundation) təklif edilir.

Son illər azərbaycanlı gənclərin də diqqət mərkəzində olan və hər il 200-dən artıq Azərbaycan vətəndaşının təqaüd proqramı əsasında təhsil almağa yollandığı Macarıstanda isə universitetlərdə lisenziya təhsili cəmi 3 illikdir. (Bu müddət bəzi mühəndislik şöbələrində 3,5 il ola bilər.) Tələbənin əvvəlcə xarici dil üçün 1 illik hazırlıq təhsili alacağını nəzərə alsaq, bu müddət ən çox 4 il olacaq. Macarıstanda magistr təhsili isə 2 ildir. Macarıstanda tibb təhsili 6 illik, Stomatologiya və Əczaçılıq 5 illikdir.

Amerikadakı bakalavr səviyyəsi proqramlarının ən cazibədar xüsusiyyəti isə çevik olmasıdır. Ümumiyyətlə, müxtəlif kurslardan seçiminizi edib özünüzə aid bir təhsil proqramı yarada bilərsiniz. Təyin olunan kreditlərin sayını qurtardıqdan sonra bakalavr adını almağa haqq qazanarsınız ki, bu ümumiyyətlə dörd illik bir təhsil prosesi ilə tamamlanır. İlk il "freshmen", ikinci il "sophomore", üçüncü il "junior" və dördüncü il də "senior" olaraq ifadə edilir. Amerikada oxuyan tələbənin 4 ildən daha uzun bir müddətdə məzun olduğunu da oxumuş ola bilərsiniz. Bunun səbəbi sahə dəyişdirmələri və yeni sahələrindən məzun ola bilmək üçün kredit yığmaqları ola bilər. Və ya akademik, şəxsi və ya maliyyə səbəblərindən dolayı dövr başına alması lazım olan dərs sayından daha az dərs alması ola bilər. ABŞ-da akademik il hər universitet və kollec üçün yüngül fərqləri olsa da əsasən oktyabrda başlayıb mayda bitməkdədir. Semestr deyilən və 18 həftədən ibarət olan dövrlərə bölünə bilər. Buna misal olaraq, "quarter" və ya "trimesters" (üç aylıq dövr) olaraq ifadə edilən 12 həftəlik müddətlər də ola bilər. Buna əlavə olaraq, universitetlər çox vaxt 6 - 8 həftəlik yaz dövrü tətbiq edir. Bu istəyə bağlı, daha qısa müddətdə məzun olmaq istəyən, normal dövr içindəki dərs miqdarını yüngülləşdirmək istəyən və ya dövr içində müvəffəqiyyətsiz olduqları dərsin kompensasiyası məqsədi ilə baş vura biləcəkləri bir variantdır.



**Kamran Əsədov,**
təhsil eksperti

> *Ali təhsil müəssisələrinin məzunları əmək bazarının tələblərinə kifayət qədər cavab vermir*

Dünyanın nüfuzlu universitetlərinin yer aldığl Çinin ali təhsil sistemi isə ABŞ-ın və Böyük Britaniyanın ali təhsil sistemlərinin vəhdətindən ibarət olsa da, daha çox ABŞ təhsil sisteminə bənzəyir. Ölkədə ali təhsil pilləsi əsasən ödənişlidir. Ali təhsil üçmərhələli bakalavr, magistratura və doktorantura pillələrindən ibarətdir. Bundan əlavə, dərəcə verməyən proqramlar üzrə tədris aparılan universitetlər də var. Magistratura və doktorantura dərəcəsi müvafiq Dövlət Şurası tərəfindən akkreditasiyadan keçmiş universitetlər və tədqiqat müəssisələrində verilir. Ölkənin ali təhsil sistemində həm 3 illik, həm də 4 illik proqramlar tədris olunur. Qonşu Türkiyədə isə ali təhsil müəssisələri bakalavr, magistratura və doktrantura üzrə tələbələrə ali təhsil verməkdədir. Bakalavr dərəcəsi üzrə təhsil müddəti 4 il (bəzi ixtisaslar 5-6 il), magistratura üzrə 2-3 ildir.

Şimal qonşumuz Rusiyada isə ali təhsil iki pilləyə bölünür : bakalavriat və magistratura. Ali təhsil proqramlarının normativ müddətlərinə gəlincə, bakalavr dərəcəsi almaq üçün təhsilin əyani forması üzrə bakalavriat proqramı - 4 il, mütəxəssis dərəcəsi almaq üçün əyani forma üzrə mütəxəssis hazırlığı proqramı - 5 ildən az olmamaqla, təhsilin əyani forması üzrə magistr dərəcəsi almaq üçün magistr proqramı - 2 il, elmi pedaqoji kadrların aspiranturaya

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

(adyunktura) hazırlığı proqramı - 3 ildən artıq olmamaqla müəyyən edilib.

Ali təhsilin tədris proqramını uğurla mənimsəmiş və yekun attestasiyadan keçmiş şəxslərə müvafiq qaydada ali təhsil təsnifatları (akademik dərəcələr) verilir. Bakalavriat proqramını mənimsəyənlərə - bakalavr, mütəxəssis hazırlığı proqramını başa vuranlara mütəxəssis, magistratura proqramını mənimsəyənlərə magistr, elmi pedaqoji kadrların aspirantura (adyunktura) hazırlıq proqramını keçənlərə ali məktəb müəllimi və ya tədqiqatçı, dissertasiya müdafiə etmiş şəxslərə isə elmlər namizədi diplomu verilir.

### Ekspert rəyi...

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən təhsil eksperti Kamran Əsədov deyir ki, hazırda Azərbaycanda 42 ümumi, xüsusi təyinatlılarla birlikdə 51 ali təhsil müəssisəsi var. Burada 182 min tələbə təhsil alır. Onun böyük əksəriyyəti - 167 mini - bakalavr, yerdə qalan hissəsi isə magistratura pilləsində təhsil alır:**

"Etiraf edək ki, ali təhsil müəssisələrinin məzunları əmək bazarının tələblərinə kifayət qədər cavab vermir. Müəssisə standartlarından uzaq kadr hazırlığı həyata keçirilir. Bunun əsas səbəbi ali təhsil müəssisələrinin idarə edilməsindəki boşluq, eyni zamanda ali təhsil müəssisələrinin texniki bazasının zəif olmasıdır. Artıq Milli Məclisdə ali təhsil haqqında qanun müzakirə edilir. Burada çox ciddi islahatlar gözlənilir. Qeyd edim ki, islahatlar fonunda istər sosial şəbəkələrdə, istərsə də mətbuatda yayılan bir çox xəbərlərdə ixtisasların bakalavr pilləsinin 3 illik, magistr pilləsinin isə 1 illik olması gözlənilir. Məsələ qanunda da öz əksini tapır. Amma bu, bütün ixtisaslara aid deyil. O ixtisaslar ki, özündə birbaşa elmi potensialı əks etdirmir və birbaşa istehsalatla bağlıdır, həmin ixtisaslar bakalavr pilləsində 3 illik, magistr pilləsində isə 1 illik olacaq. Elmi tədqiqatı özündə əks etdirən digər sahələr isə, əvvəlki qaydada, bakalavr pilləsində 4 illik, magistr pilləsində isə 2 illik olacaq. Turzim, elektronika mühəndisliyi və s ixtisaslar uzun müddət elmi tədqiqatla məşğul olan sahə deyillər. Eyni zamanda, bədən tərbiyəsi, təsviri incəsənət kimi bəzi qabiliyyət tələb edən ixtisaslar var ki, təhsil alanların 4 il oxumasına ehtiyac yoxdur. Digər tərəfdən, bizim ali təhsil müəssisələrimizdə tədris zaman kifayət qədər əlavə fənlər keçirilir. Məsələn, tarix fənni ixtisasında oxuyanlara riyaziyyat fənni keçirilir. Bu da tədris ilinin uzanmasına gətirib çıxarır. Hesab edirəm ki, müddətin azaldılması deyiləndə qeyri-ixtisas fənlərinin tədrisinin dayandırılması nəzərdə tutulur. İkinci vacib bir məqamı qeyd edim ki, bu müddətin azaldılması təhsil haqlarına da təsir edəcək.Bir daha vurğulayım ki, tədris müddətinin qısaldılması bütün ixtisaslara şamil edilməyəcək. Bu müddətin azaldılması, birinci növbədə, Azərbaycan təhsilinin dünya təhsilinə daha sürətli inteqrasiyasına imkan yaradacaq".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Media subyektləri müəyyənləşir. Bu, "Media haqqında" qanunun ilkin versiyasında əksini tapıb. Layihəyə əsasən, media subyektləri audiovizial media, çap mətbuatı, onlayn media və informasiya agentlikləri olacaq.

---

■ 2021-ci ilin yanvar-iyun aylarında proqnoza nisbətdə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 175,5 mln. manat və ya 10,6% artıb. Büdcə təşkilatlarında ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,7 mln. manat və ya 1,6 %, qeyri-büdcə təşkilatlarında isə 123,4 mln. manat və ya 11,9% artım qeydə alınıb.

---

■ Azərbaycan Respublikasının vətəndaşları yaşından asılı olmayaraq yalnız biometrik şəxsiyyət vəsiqələri ilə Türkiyə Resbulikasına birbaşa səfərlər edə bilərlər. Bu barədə Trend-in sorğusuna cavab olaraq Dövlət Sərhəd Xidmətinin mətbuat xidmətin bildirilib. Qeyd olunub ki, köhnə nəsil şəxsiyyət vəsiqələri ilə Türkiyəyə gediş-gəlişə icazə verilmir. Həmçinin bildirilib ki, bu qanun Türkiyədən gələn vətəndaşlar üçün də keçərlidir.

---



■ Ötən dövrdə e-sistem üzərindən həyata keçirilən nəzarət zamanı 72 işəgötürənin icbari sığorta müqaviləsi bağlamadığı və ya sığorta haqqını ödəmədiyi üçün müqavilələrinə birtərəfli qaydada xitam verildiyi aşkar edilib. Xidmətin qanunvericiliyin tələbləri əsasında gördüyü tədbirlər nəticəsində onların hər birinin işçilərlə icbari sığorta müqaviləsi bağlamaları təmin olunub.

---

■ Azərbaycan qazını Avropaya nəql edən Trans-Adriatik boru kəməri (TAP) yaxın iki il ərzində illik 10 milyard kubmetr həcmində tam gücünə çatacaq. Bu barədə Beynəlxalq Enerji Agentliyinin (BEA) hesabatına istinadən məlumat verir. Hesabatda qeyd olunub ki, 2020-ci ildə Avropanın boru kəmərləri ilə qaz idxalı Rusiya, Şimali Afrika və İrandan idxalın kəskin azalması ilə əlaqədar 10 faizdən çox azalıb.

---



■ ABŞ-ın bir qrup virusologiya mütəxəssisi yaxın aylar ərzində koronavirusun 22 yeni ştammının yaranacağını proqnozlaşdırıb. ABŞ-ın "Vir Biotechnology" şirkətinin və Genomika İnstitutunun alimləri SARS-CoV-2 koronavirusunun spayk zülalında dəyişiklikləri əvvəldən proqnozlaşdıran riyazi model hazırlayıb. Aparılan hesablamalara əsasən, növbəti 4 ay ərzində koronavirusun 22 yeni ştammı yarana bilər, onlardan bəziləri anticisimlərin qorunma bacarığını azaldacaq.

---

■ Ümumdünya Vəhşi Təbiət Fondu Oxçuçay fəlakətini araşdıracaq. Diasporla İş üzrə Dövlət Komitəsindən hafta.az-a verilən məlumata görə, Ümumdünya Vəhşi Təbiət Fondu (World Wildlife Fund) ölkəmizin ərazisindən keçən Oxçuçayda Ermənistan və Almaniya şirkətlərinin törətdiyi fəlakətli vəziyyətlə əlaqədar İsveçrə Azərbaycanlıları Koordinasiya Şurasının müraciətinə cavab verib.

# Azad edilmiş ərazilərə necə gedək?!

***Son vaxtlar tez-tez işğaldan azad edilmiş ərazilərə qanunsuz olaraq keçmək istəyən vətəndaşlarla bağlı xəbərlər eşidirik. Minalardan və digər partlayıcı maddələrdən tam təmizlənməmiş həmin ərazilərə nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərən şəxslərin qarşısının alınması istiqamətində polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən zəruri və təxirəsalınmaz tədbirlər həyata keçirilir.***

Hazırda ərazilərin bir qismi minadan təmizlənib. Belə olan halda, görəsən, qanuni olaraq azad edilmiş rayonlara getmək üçün hara müraciət olunmalıdır? Ümumiyyətlə, belə təcrübə varmı?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan millət vəkili, Milli Məclisin İnsan Hüquqları Komitəsinin üzvü Fazil Mustafa deyir ki, azad olunmuş ərazilərə gediş-gəliş müəyyən təlimatlar əsasında həyata keçirilməlidir. Üstəlik, hazırda bu işə ciddi nəzarət də lazımdır.**

Qanunsuz şəkildə bu rayonlara getməyə imkan verilməməlidir: "Bəzən ora heyvanların daşınmasını əks etdirən kadrlar göstərilir. İnsanlar da hansısa qanunsuz yollarla gedib-gələ bilirlər. Dövlətin müvafiq qurumlarının razılığı olmadan bu işi görmək olmaz. Təəssüf ki, burada da özbaşınalıq var, tanışlıq, dostluq və qohumluq əlaqələri ilə qanunsuz surətdə bu ərazilərə girə bilən vətəndaşlar olur. Hər halda, bütün bunlar nəzərə alınaraq elə addım atmaq lazımdır ki, digər insanlar da narazı qalmasınlar. Hamı torpaqların həsrətindədir və gedib görmək istəyir". Millət vəkilinin sözlərinə görə, xüsusi hallarda müvafiq qurumlara müraciət etməklə rəsmi icazə almaq mümkündür: "Xüsusi məsələ varsa, bu zaman müvafiq qurumlara müraciət etməklə azad olunmuş ərazilərə getmək olar. Hazırda məsələ ilə bağlı anlaşılmazlıqlar var. Ərazidən asılı olaraq, Müdafiə Nazirliyinə, Daxili İşlər Nazirliyinə, yaxud Sərhəd Qoşunlarına müraciət etməklə bu işi təşkil etmək olar".

> *Təəssüf ki, burada da özbaşınalıq var, tanışlıq, dostluq və qohumluq əlaqələri ilə qanunsuz surətdə bu ərazilərə girə bilən vətəndaşlar olur*

> *Qanunvericilikdə işğaldan azad ərazilərə icazəsiz daxil olan vətəndaşlar üçün konkret hər hansı sanksiya nəzərdə tutulmamışdır*



■ **Mövzuya qanunvericilik tərəfindən mövqeyini bildirən vəkil Turan Abdullazadə isə söyləyir ki, 29.10.2020-ci il tarixdə Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı qəbul edilmişdir.** Həmin fərmanla Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqların yaradılması qərara alınmışdır. "Qeyd olunan fərmanda göstərilmişdir ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi işğaldan azad olunmuş ərazilərdə giriş-çıxışın xüsusi rejiminin tətbiqini təmin etməlidirlər. Əgər Prezident fərmanı ilə tətbiq olunan xüsusi giriş-çıxış rejimi qüvvədədirsə, deməli, hələ də işğaldan azad olunmuş ərazilərə vətəndaşların getməsi məqsədəmüvafiq deyil". T.Abdullazadə vətəndaşları hələ bir müddət də səbirli olmağa çağırır:

"Bildiyimiz kimi, bir neçə gün əvvəl Ermənistan Füzuli və Zəngilanda basdırdığı 92 minlik mina xəritələrini Azərbaycana təhvil vermişdi. Ondan daha əvvəl isə Ağdam rayonunda basdırılan 97 minlik tank və piyadaəleyhinə olan mina xəritələrini Azərbaycana təhvil vermişdi. Lakin mənfur düşmənin həmin xəritələri təqdim etməsi hələ vətəndaşların artıq işğaldan azad olunmuş ərazilərə sərbəst şəkildə gedə biləcəyi anlamına gəlmir. İnsanların Vətən həsrəti anlaşılandır. Ehtiyatsızlıq bədbəxt hadisələrə səbəb ola bilər".

Hüquqşünasın sözlərinə görə, qanunvericilikdə işğaldan azad ərazilərə icazəsiz daxil olan vətəndaşlar üçün konkret hər hansı sanksiya nəzərdə tutulmamışdır. Bu hal dəfələrlə baş verərsə, hüquq-mühafizə orqanları tərəfindən həmin vətəndaşlar barəsində analoji hallarla bağlı qanuni ölçü götürülə bilər. İlkin olaraq profilaktik söhbət aparılaraq və xəbərdarlıq olunaraq vətəndaş sərbəst buraxıla bilər:

"Hazırkı vəziyyətdə bütün məhdudiyyətlərə baxmadan təkidlə işğaldan azad olunmuş ərazilərə getmək istəyən vətəndaşlar rəsmi şəkildə ölkə Prezidentinə, Prezident Administrasiyasına, Müdafiə Nazirliyinə, Daxili İşlər Nazirliyinə və digər aidiyyəti qurumlara rəsmi müraciət edərək onlara həmin ərazilərə səyahət üçün şərait yaradılmasını xahiş edə bilərlər. Hər bir halda vətəndaşların müvafiq dövlət orqanlarına müraciət etmək hüququ vardır. "Vətəndaşların müraciəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.1-ci maddəsinə əsasən vətəndaşların müraciətlərinə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır".

✍ ***Banu***

# Mina xəritələrinin təhvil alınması

## Hərbi və siyasi baxış

### Aktual



***Azərbaycan daha iki rayonun mina xəritələrini Ermənistandan aldı. Rusiyanın qarant durduğu mina xəritələrinin nə dərəcədə real olacağı birmənalı qəbul olunmur. Dünənədək bu xəritələrin mövcudluğunu danan Ermənistan rəsmi məlumat yayaraq 15 diversantın azad edilməsi qarşılığında "xoş məram jesti" edərək Füzuli və Zəngilan rayonlarının mina xəritələrini Azərbaycana təhvil verdiyini bəyan edir.***

Beynəlxalq humanitar konvensiyalara görə müharibə bitəndən dərhal sonra mina xəritələrini qeyd-şərtsiz Azərbaycan verməli olan Ermənistanın indi "xoş məram jesti"ndən danışması gülünc olsa da, bir sıra yerli və xarici ekspertlər bu prosesi Ermənistanın dinc yolla dialoqa gəlməsinə hazırlaşdırılması baxımından vacib sayır. Bəziləri isə Ermənistanın dialoqa hazır olmasının illüziya olduğunu iddia edir və bu ölkənin yalnız təzyiq dilindən anladığını deyirlər.

Bütün hallarda Ermənistanın minalanmış ərazilərin xəritələrini təhvil verməsi hansı siyasi və hərbi əhəmiyyətə malikdir və bu düşmən ölkənin gözlənilən sülh danışıqlarına uyduğunu deməyə əsas verirmi?

**■ Mina xəritələrinin təhvil verilməsinin hərbi əhəmiyyətini hafta.az-a şərh edən hərbi ekspert Üzeyir Cəfərov bildirib ki, Azərbaycan o xəritələr olsa da öz işini görəcək, olmasa da. Onun sözlərinə görə, hələ o xəritələrin nə dərəcədə dəqiq olduğu bilinmir və bizim üçün hərbi əhəmiyyəti o qədər də böyük deyil.**



**Üzeyir Cəfərov,**
hərbi ekspert

"Azərbaycan onsuz da öz işini görürdü. Əgər verilən xəritələr reallığı əks etdirəcəksə, biz həmin əraziləri daha tez təmizləyə biləcəyik. Xəritələrin verilməsi Ermənistanın buna məcbur edilməsi baxımından uğurlu addım kimi dəyərləndirilə bilər. Erməni o yerləri bizdən yaxşı tanıya bilməz. O ərazilər bizim yerlərdir".

Ü.Cəfərov bildirir ki, bu gün "xoş məram"dan danışan ermənilərin məramı, şərəfsizliyi ağaclara bağladıqları minalarda yaxşı görünür. Ermənistanın bu hərəkətləri beynəlxalq hüquqa, beynəlxalq qurumlara tüpürməkdir.

"Onsuz da bilirdik ki, Ermənistan heç bir beynəlxalq hüquq normalarını tanımır. Tanısaydı, 30 ilə yaxın müddət ərzində Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad etməklə bağlı BMT-də qəbul olunan 4 qətnaməni yerinə yetirərdi. Bu gün ağızdolusu danışan qurumlar da Ermənistanı buna məcbur edərdilər. Ermənistan noyabrın 10-da imzalanmış razılaşmaya əsasən minalanmış xəritələri Azərbaycana təqdim etməyə və silahlı erməniləri ərazilərindən çıxarmağa borclu idi. Bunu etmədi və Azərbaycan öz gücü ilə, müxtəlif vasitələrlə o xəritələri əldə etməyə çalışdı. Aylardır ki, ölkə rəhbərliyi, Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi, deputatlar və digər qurumlar bu məsələni müxtəlif kürsülərdə qaldırırlar. Beynəlxalq təşkilatlardan bir səs çıxmır. İndi isə hamı guya xəritələrin qaytarılmasından xoşhal olub. Düzü, mən başa düşə bilmirəm, beynəlxalq qurumlarda Ermənistanın hüquq pozuntusuna göz yuman Avropa Şurası təmsilçiləri, ATƏT-in həmsədrləri özlərinə necə hörmət edirlər?!". Bununla yanaşı, ekspert hesab edir ki, mina xəritəsinin verilməsi bir qədər prosesləri yüngülləşdirmək, bu işin təhlükəsiz və mümkün qədər tez həyata keçirilə bilməsi üçün lazımdır. "Ən azı riskli mina zonaları barədə aydın təsəvvür olacaq. Biri var 1 kvadrat metr ərazini 40 dəqiqəyə təmizləyəsən, bir də var ki, 1 saata təmizləyəsən. Bu nöqteyi- nəzərdən xəritələrin alınmasının əhəmiyyəti var".

Ü.Cəfərov bildirib ki, minalanmış xəritələrin əsas memarı Rusiyadır.

"Ermənidə o ağıl yoxdur. Bir ay əvvəl Paşinyan öz dili ilə dedi ki, o xəritələr Rusiyadadır. Ermənilərin xoşməramlı çıxışlarında səmimi olmalarını heç vaxt qəbul etməmişəm. Erməni ermənidir, o ki qaldı Paşinyan olsun... Eyni zamanda, bu məsələ Ermənistanda lap əvvəldən minalanmış ərazilərin xəritələrinin olduğunu təsdiqləyir. İrəvan həmin xəritələrin mövcud olmadığını iddia edərək, yaxud sadəcə, susqunluq göstərərək, onları təhvil vermirdi. Artıq hamı başa düşdü ki, Ermənistan bu məsələdə tamamilə qeyri-konstruktiv mövqe tutub. zərbaycan onsuz da dünyanın həll edə bilmədiyi məsələni həll elədi. BMT-nin icra edə bilmədiyi qətnamələri yerinə yetirdi".

Hərbi ekspert Ermənistanın mina xəritələrinin verilməsi üzərindən özünün "xoş məramı" kimi təbliğat qurmasını ermənilərin və havadarlarının növbəti məkrli davranışı kimi qeyd edib.

"Görün, nə qədər həyasızdırlar ki, minaların xəritələrini qaytarmağı humanistlik kimi təqdim eirlər. Biz onsuz da torpaqlarımızı erməni terrorundan azad edəcəyik və bunun üçün də hər cür resursumuz var. Bədbəxt ermənilər özləri gedib dərdlərini çəksinlər ki, hamı Ermənistandan qaçır. Ermənilərin belə sayıqlamaları zaman-zaman olub və var, bundan sonra da olacaq. Humanistlik o idi ki, Azərbaycan sənin 15 yaramazını qaytardı, 13-nün də məhkəməsi gedir". Ekspert hesab edir ki, bu gün ermənilərə havadarlıq edən Rusiya sülhməramlılarının komandiri general-leytinant Rüstəm Muradovun hərəkətləri qıcıq doğurur:

"Sülhməramlıların komandiri indi ikinci Kasprişikin rolunu oynayır. Birinci Kasprişik ATƏT xətti ilə burdan-ora, ordan-bura qaçırdı, ikinci "Kasprişik" də Rusiyanın xətti ilə hərəkət edir. Onların vəzifəsi ərazilərdə olan qeyri-qanuni silahlıları zərərləşdirib qanuna dəvət etməkdir. Görünən odur ki, sülhməramlılar tam başqa missiyanı yerinə yetirir. Adamdan soruşarlar: nədir, sən kuryer işləyirsən?!". O ki qaldı xəritələrin verilməsinin sülh danışıqlarına doğru hansı addım olmasına, Ü.Cəfərov bildirib ki, bütün hallarda Azərbaycan Ermənistanı sülh danışıqlarına məcbur edəcək.

> *Ermənistanın hərəkətləri beynəlxalq hüquqa, beynəlxalq qurumlara tüpürməkdir*

> *Paşinyan seçkilərdə qələbə qazanıb əlini möhkəmləndirəndən sonra yeni "nəğmələr oxumağa" başlayıb*

"Onlar nə bəyanat səsləndirir, səsləndirsinlər, ortada onların yiyələri var. Yəni Rusiya sənədə imza atıb və səsləndirdiyi fikirlərdən aydın olur ki, tərəflər arasında sülh təminatına nail olmalıdırlar. Birinci növbədə isə sərhədlər müəyyənləşməlidir. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyandan sonra yerdə qalan məsələlər Azərbaycanın daxili işi olacaq. Xankəndi, Xocavənd və digər ərazilər də avtomatik olaraq Azərbaycanın nəzarətində olacaq. Ondan sonra sülhməramlılara da ehtiyac qalmayacaq".

**■ Politoloq Qabil Hüseynli hafta.-az-a mina xəritələrinin alınmasının siyasi əhəmiyyətini təhlil edərkən Rusiya oyunlarının önə çıxdığını qeyd edib.** "Ermənilər Azərbaycanda diversiya törətmiş 15 nəfər erməni əsirini bu xəritələrin müqabilində geriyə qaytardılar. Onların içərisində 13 nəfərə məhkəmə araşdırılması nəticəsində cəza da kəsilmişdi. Xəritələrin verilməsi beynəlxalq konvensiyalara uyğun, Azərbaycanla münasibətləri yaxınlaşdırmaq naminə edilmir.

Rusiya bu prosesə nə dərəcədə qatılsa da, əvəzində erməni silahlı qüvvələri, sülhməramlı qüvvələrin nümayəndələrini istədiyi vaxt Ermənistana göndərir. Bütün xəritələr verilmiş olsaydı, bunu xoş niyyət, iki ölkə arasında münasibətləri yaxşılaşdırmağa yönəldilmiş xoş məram kimi dəyərləndirmək olardı. Təəssüf ki, bu belə olmadı, hələ də Kəlbəcərin, Laçının və Qubadlının mina xəritələri Azərbaycana verilməyib. Bu o deməkdir ki, ermənilər Azərbaycanı həmişə nədəsə asılı vəziyyətdə saxlamağa çalışırlar. Torpaqlarından qovulmuş 1 milyondan artıq Azərbaycan insanının öz ərazilərinə qayıdıb məskunlaşmasını yubandırmaq istəyirlər. Bununla da Azərbaycana başqa yolla zərbə vurmaq istəyirlər. Paşinyan seçkilərdə qələbə qazanıb əlini möhkəmləndirəndən sonra yeni "nəğmələr oxumağa" başlayıb. Və danışıqlar prosesi ilə bağlı hələ ki, Azərbaycanı təmin etməyəcək yeni sülh oyunundan ibarət iddialar irəli sürür. Hər halda Ermənisatanla Böyük Sülh sazişini bağlamaq xeyli çətindir. Çünki Ermənistan qeyri-konstruktiv davranışı ilə sülh prosesinə əngəllər yaradır".



**Qabil Hüseynli,**
politoloq

Politoloq regionda gedən prosesdə növbəti məkirli maraqların rol oynadığını önə çəkib. O, bildirib ki, Rusiya indi də Cənubi Qafqazda hakim rola malik olduğunu sübut etmək istəyir.

"Heç kəsə sirr deyil ki, minaların verilməsi Rusiyanın hökmünə bağlıdır. Rusiya istəsə diversantları geri qaytarmadan da mina xəritələrini Azərbaycana qaytardıra bilərdi. Rusiya burada siyasi alverə girişib. Bu alver hesabına həm Azərbaycanı, həm də Ermənistanı açıq təhdid altında saxlayır. Rusiyanın rolu konstruktiv addım sayıla bilmz. Qıcıqverici addımların bu şəkildə atılması, prosesin bu şəkildə idarə edilməsi bölgədə Azərbaycanı Türkiyə ilə birlikdə antiterror əməliyyatlarına başlamağa vadar edə bilər. Onsuz da bu məsələ gündəmdədir. Üstəlik, Azərbaycan Rusiya sülhməramlılarının bölgədən çıxarılması məsələsini gündəmə gətirilə bilər. Kim nə deyir-desin, hansı mahnıları oxuyur-oxusun, Rusiya sülhməramlılarının bölgədə 5 il yox, xeyli az müddətdə qalacağını söyləmək mümkündür. Sülhməramlılar Ermənistanda yaşayan erməniləri Qarabağa gətirməklə, partizan hərəkatı ilə məşğul olmaq məqsədi ilə bölgəyə diversant qrupları buraxmaqla və digər hərəkətləri ilə Rusiya sülhməramlıları, sülhməramlı prinsipləri çoxdan tapdalayıb keçiblər.

✍ *Tahirə*

---

**Regionun ictimai-siyasi mənzərəsi özünün mürəkkəbliyi ilə diqqət çəkir. Azərbaycanın Ermənistan üzərində hərbi qələbəsinə kölgə salmağa çalışan güclər var ki, ekspertlər hər hansı daxili siyasi boşluğun həmin gücləri aktivləşdirəcəyini önə çəkirlər. Bu mənada bütün hallarda siyasi partiyaların öz fəaliyyətlərini düzgün və qərəzsiz qurması əsas şərtlərdən hesab olunur. Siyasi partiyaların mübarizəsində əsas prioritet nə olmalıdır? Bu və ya digər məsələlərlə bağlı hafta.az-a müsahibə verən Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu maraqlı məqamlara diqqət çəkib.**



**Ağasif Şakiroğlu,**
Gələcək Azərbaycan Partiyasının sədri

***- Bildiyimiz kimi, partiya olaraq rəsmi qeydiyyata alındınız və ofislə təmin olundunuz. Bu proses Azərbaycanda siyasi partiyaların fəaliyyətinə hansı təsirini göstərdi və eləcə də bir çox partiyalara ayrılan bu diqqətdən sonra məhz müxalifətdən gələn hansı təsirlərlə üzləşdiniz?***

- Siyasi partiyalara fəaliyyət göstərməsi üçün şərait yaradılması qanunvericiliklə təsbit olunub. Hər bir dövlətin, hakimiyyətin üzərinə düşən məsuliyyət, hüquqi öhdəlik işi opponentlərə, siyasi müxalifətə qanun çərçivəsində fəaliyyət göstərməsinə şərait yaratmaqdır. Bu imkanı bizə Azərbaycan iqtidarı yaratmayıb, Azərbaycan Konstitusiyasının verdiyi səlahiyyətlərdir. Biz

### Palitra

# "Eldar Həsənov bizimlə görüşüb onu dəstəkləməmizi istədi"

siyasi partiyalar da ondan faydalanırıq. İqtidar bir açılım edib. Bilirsiniz ki, Prezident Administrasiyasında çox ciddi dəyişikliklər oldu. Siyasi-ictimai şöbə ləğv olunub, yeni bir qurum yaradıldı və sair. Bütün bunların hamısı Azərbaycanda yeni siyasi mədəniyyətin formalaşmasının təməlini qoydu. Demokratik açılım oldu, siyasi dialoq başladı. Bütün siyasi partiyaların problemləri qabardıldı və həllinə doğru addımlar atıldı. Bu əslində şəxsi problemlər deyil. Siyasi partiyaların problemi, həm də cəmiyyətin problemi deməkdir. Siyasi partiyalar da cəmiyyətin müəyyən bir kəsimini təşkil edir. Demək olar ki, siyasi partiyaların fonunda, həm də cəmiyyətin müəyyən problemləri həll olunub. Onların fəaliyyəti üçün normal şərait yaradıldı, qərargahla təmin edildi, kənar müdaxilələr, təzyiqlər aradan qaldırıldı. Müxalifətin televiziyaya çıxmasının qarşısına qoyulmuş yasaq, demək olar ki, aradan qaldırıldı. Görürsünüz, Real Partiyasının sədri İlqar Məmmədov, Ağ Partiyanın sədri Tural Abbaslı, demək olar ki, bütün günü efirlərdədirlər. Biz daha çox müstəqil media, onlayn televiziyalarla fəaliyyətimizi təmin edirik. Bunları deməkdə məqsədim odur ki, problemlər heç də yerli-dibli həll edilməyib. Biz nikbinik, inanırıq ki, digər problemlər həll edildiyi kimi, bu problemlər də həllini tapacaqdır.

Bəli, qeydiyyata alınıb, ofislə təmin olunduğumuza görə, bizə qarşı da tikanlı sözlər deyildi. Bu tək mənim şəxsimə, rəhbərlik etdiyim Partiyaya qarşı deyilmirdi. Bu bütövlükdə qanunvericilik çərçivəsində mənzil-qərargahla təmin edilmiş bütün partiyalara şamil olundu. Burada da absurd bir mənzərə yaranır. Bu tikanlı fikirləri səsləndirənlər daha çox iki partiyanın nümayəndələri idi - Müsavat və AXCP. Elə bir mənzərə yaratmağa çalışırlar ki, dövlət qeydiyyatındasansa, sən satılmısan. Qardaş, Müsavat Partiyası yarandığı gündən dövlət qeydiyyatındadır və heç bir fəaliyyəti də məhdudlaşdırılmayıb. Müsavat Partiyası zamanında Əmlak Məsələləri üzrə Dövlət Komitəsindən, təxminən, 700 kvadratlıq mənzil-qərargahla təmin olunub. Eyni qayda da Azərbaycan Xalq Cəbhəsi Partiyasının dövlət qeydiyyatı və şəhərin mərkəzində 700-800 kvadratlıq mənzil-qərargahı olub. Sonra o qərargahdan çıxdılar, yeni qərargaha getmədilər. Yəni bu partiyalara qərargah verilib və bu gün bizə də verilib. Əgər bu, Azərbaycan siyasətində satılmaqdırsa, bu alverin başında Xalq Cəbhəsi ilə Müsavat oturub. Məgər qurultaydan sonra Müsavat Partiyasını dövlət qeydiyyatına almadılar? Yaxud AXCP-nin dövlət qeydiyyatı yoxdur. Necə olur, sizə olar, başqalarına olanda deyirsiz, satqındırlar. Deməli, çox təəssüflər olsun ki, bizim düşərgədə də müxalif düşərgəni monopoliyada saxlamaq istəyən müəyyən partiyalar var.

> *İndi bəzi siyasətçilər daxildən yox, daha çox xarici siyasətdən danışırlar. Beynəlxalq siyasətdən danışmaq asandır axı*

***- Monopoliyaya ala bilirlərmi? Ümumiyyətlə, əvvəlki illərə baxanda müxalifət partiyaları arasında konstruktiv mövqeyə gəlmə müşahidə olunurmu?***

- Düşünürəm ki, Azərbaycan müxalifəti hər zaman konstruktiv olub və sağlam ideyalarla çıxış edib. Bir zamanlar müxalifətin səsləndirdiyi fikirlər göz önündədir. Biz deyirdik ki, "Türkün türkdən başqa dostu yoxdur, Türkiyə Azərbaycanın müttəfiqi olmalıdır, hərbi saziş imzalanmalıdır. Bu, nəhayət ki, Şuşa Bəyannaməsi ilə reallaşdı. Biz deyirdik ki, Qarabağın azadlığı Türkiyə-Azərbaycan birliyindən keçir, ATƏT-in Minsk Qrupu və sair kimi beynəlxalq qurumların fəaliyyətinin heç bir mənası yoxdur. Zamanla bunu da gördük.

Məhz Azərbaycan əsgərinin döyüşməsi, türk dronlarının yardımı ilə qələbəni qazandıq. Zakir Həsənovun da dediyi kimi, Türkiyə Ordusu Azərbaycan Ordusunun formalaşmasında, təlimlər keçməsində, Azərbaycanda peşəkar zabitlərin yetişməsində təhsil mənbəyi kimi çox mühüm rol oynadı. Seyəndə ki, Səlim Müslümov təpədən-dırnağa qədər korrupsiyaya bulaşıb, əlillik satır, min cür hoqqadan çıxır, bizi məhkəməyə verməklə təhdid edirdilər. Deyirdik ki, icra başçıları korrupsiyaya bulaşıb, bizi haqlı saymırdılar. Ötən bir ildə gördük ki, nə qədər icra başçısı həbs edildi. Bu siyahını uzada da bilərik. Müxalifət nə zaman konstruktiv olmayıb ki... Müxalifətdə bütün prosesləri qara görməyə hazır olan iki partiya olub. O da bayaq adını çəkdiyim partiyalardır. Bəli, müxalifətin alınyazısı hakimiyyəti tənqid etməkdir, amma vicdanlı tənqid lazımdır. Bakıda qurulan bu yeni infrastrukturu görməmək, görüb dilə gətirməmək insafsızlıq və qeyri-obyektivlikdir. Xatırlayırsınızsa, noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda 3 rayonun - Ağdam, Laçın, Kəlbəcərin qeyri-döyüş şəraitində boşaldılması öhdəçiliyi götürülmüşdü. Bizim inkarçı müxalifət dayanmadan təbliğat aparırdı ki, "Bu rayonlar verilməyəcək, İlham Əliyev xalqı aldadır". Rayonlar bir güllə atılmadan azad olunanda hay-küy salındı ki, bəs Xankəndi niyə alınmır? Təbii ki, bu şəhərimiz azad olunmayıb, amma zamana ehtiyac var. İstənilən işdə qüsur var, hadisələrə obyektiv yanaşmaq lazımdır. Biz mövcud iqtidarın Qarabağ siyasətini birmənalı dəstəkləyirik və əminəm ki, Gələcək Azərbaycan Partiyası iqtidarda olsaydı, beynəlxalq siyasəti bundan artıq qura bilməzdi. Nə mümkündürsə, İlham Əliyev onu edib. Daxili siyasətdə müəyyən çatışmazlıqlar var, biz onları dilə gətiririk. İndi bəzi siyasətçilər daxildən yox, daha çox xarici siyasətdən danışırlar. Beynəlxalq siyasətdən danışmaq asandır axı. Daxili siyasətdən danışırıq, nöqsanlara görə iqtidarı tənqid edirik. Beynəlxalq siyasətdə, xüsusən Qarabağ siyasətində birmənalı olaraq iqtidarın mövqeyini dəstəkləyir və yanında olduğumuzu bəyan edirik. Müxalifət istəmir ki, iqtidarın hesabına xal yazılsın. Elə məsələlər var ki, orada susmaq lazımdır. Orada iqtidar-müxalifət yox, dövlət anlayışı var. Müxalifət olaraq iqtidarın hesabına xal yazılmasın deyə, dövlətin ümumi maraqlarını tənqid etməməliyik.

***- Bu gün "5-ci kolon"dan danışılır və belə qeydlər var ki, bu kolon müharibədən sonra ölkə əhalisi arasında narazılıq yaratmağa və prosesləri öz xeyrinə dəyişdirməyə çalışır.***

- Azərbaycanda "5-ci kolon" da var, "6-cı kolon" da, hətta 7-si də. Bunlar reallıqdır. Mən elə şeylər danışaram ki, daşlar yerindən oynayar. Sadəcə, indiki zamanda bu barədə danışmağı doğru hesab eləmirəm. Bəli, üzdə görünən "5-ci kolon"dur və nələrsə etməyə çalışır. Ən təhlükəli olanları görünməz olub, altdan-altdan iş görənlərdir. Elə proseslər baş verib ki, bu gün dilə gətiriləsi deyil. Məsələn, Eldar Həsənov niyə həbsdədir? Eldar Həsənov vəkili Adil İsmayılovla görüşüb nə söhbətlər aparırdı? Şəxsən mənimlə, Ramiz Rövşən və digər siyasi partiya rəhbərləri, ziyalılarla görüşüb və 2025-ci il Prezident seçkilərində onun namizədliyinin müdafiə olunmasını xahiş edib. Təbiidir ki, hər bir vətəndaşın seçkilərdə iştirak etmək hüququ var. O bağlı qapılar arxasında nələr danışılıb? Maliyyələşmənin necə təşkil olunacağı ilə bağlı hansı məqamlar var, çox gözəl bilirəm. Sadəcə, indiki zamanda toxunmaq istəmirik.

***- Ağasif bəy, bir qədər öncə Azərbaycan Xalq Hərəkatında digər siyasi partiyalarla bir araya gəlmişdiniz. Sonra hərəkat qalmaqalla iki qanada bölündü - bir tərəfdə rəhmətlik İsgəndər Həmidov, digər tərəfdə Mirmahmud Mirəlioğlu və tərəfdarları dayandı. İndi o Hərəkat fəaliyyət göstərirmi?***

- Mən o vaxt AXH-nin legitimliyini təşkil edən 18 üzvdən 9-nun təmsil olunduğu qanadda idim. 2019-cu il 26 noyabr tarixində Azərbaycan Xalq Hərəkatının təmsil olunduğum qanadının sonuncu iclası olub və Xalq Hərəkatı rəsmən dağılıb. Ola bilər ki, bu gün kimlərsə başqa fikirlər deyir. Sizcə, o vaxt hərəkatın həmin iclasında baş verən davadan, qalmaqaldan sonra hansısa bir qurumun yaşaması mümkün idi?.. Hərəkat o sonuncu toplantısından sonra buraxıldı və təmsilçiləri KXCP-nın təmsil olunduğu qanadda fəaliyyətlərini sürdürdülər. Onunla da AXH erası bitdi.

***- Mirmahmud Mirəlioğlu və İsgəndər Həmidovun müavini İlyas Abdullayev hər biri öz qanadında AXN-nin öz fəaliyyətini davam etdirdiyini deyirlər...***

- Adama sual verərlər ki, AXH-ni kimlər təsis edib və bu gün o təsisçilərdən orada kimlər var? Əgər təsisçi Ağasəf Şakiroğlu, Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev o prosesdə iştirak eləmirsə, İsgəndər Həmidov haqq dünyasına qovuşubsa, ümumiyyətlə, hərəkatı təsis edən 18 nəfərdən heç biri yoxdursa, necə fəaliyyət göstərə bilər? Legitim qanad noyabrda ləğv olunandan sonra, o biri qanad, yəni KXCP sədri Mirmahmud Mirəlioğlunun sədri olduğu hərəkat qanad avtomatik legitimlik qazanır. Fəaliyyət göstərir deyirlərsə, uğurlar diləyirik.

***- Ağasif bəy, ümumilikdə, siyasi müxalifət düşərgəsi hansı yeni siyasi mərhələyə keçib?***

- Düşünürəm ki, Azərbaycan siyasi düşərgəsi iqtidarlı-müxalifətli yeni siyasi dialoq mərhələsinə qədəm qoyub. Siyasi müxalifət partiyaları isə cəmiyyətdən mandat almaq uğrunda mübarizə aparır. Daha çox "ana müxalifət"çilik uğrunda mübarizə gedir.

✍ *Tahirə*

# “Kontakt home” qazini məhkəmə ilə hədələyir

Şikayət

***Düşmənlə savaşıb sağ-salamat evinə qayıdan Vətən Müharibəsi iştirakçısı niyə intihara əl atsın? Niyə qələbənin qüruru ilə yaşamaq istəməsin? O Vətən qazisi ki, torpaqların düşməndən azad olunması uğrunda canını, qanını fəda edib. Bu igidi düşmən üzərində qələbədən sonra kimlər qəzəbləndirə, sarsıda bilər? Nədir çözülməyən düyün, həll edilməyən çətinlik?! Səbəblərini qazilərin özlərindən eşidib biləcəksiniz... Sosial şəbəkələrdə, müxtəlif media seqmentlərində gedən xəbərlərdə müharibədə iştirak edən, döyüşən qazilərimizə əlilliyin verilməsi, onların sosial-məişət problemləri, xüsusilə də sağlamlığı ilə bağlı müəyyən çətinliklərlə üzləşdiyi yazılır. Eləcə də şəhid ailələri ilə bağlı həllini gözləyən nöqsanlar mövcuddur ki, hələ də çözülür.***




**■ Bu gün Vətən Müharibəsi iştirakçısı, qazi Anar Rais oğlu Həsənov da üzləşdiyi məişət problemlərinə görə intihara əl atıb. Ən qəbul olunmayan məqam isə qazinin əvvəllər işlədiyi müəssisə tərəfindən 2400 manat borca görə məhkəməyə verilməsidir.**

Həmin “Kontakt home” mağazasıdır ki, qazimiz onun rəhbərlərindən birinin deputat Elnur Allahverdiyev olduğunu deyir. 2400 manatı ödəyib qazinin borcunu silməsi bu deputat üçün beləmi çətindir?! Bəlkə də səsini eşidib, dərdini dinləsəydi, bunu edərdi. Qazimiz deyir ki, məsələ ilə bağlı deputatla heç bir telefon əlaqəsi yarada bilməyib. Rəsmi instaqram səhifəsinə yazsa da, ona cavab gəlməyib.

**■ Hafta.az olaraq, deputatın köməkçisi ilə əlaqə qurduq. Deputat köməkçisi bildirdi ki, Elnur Allahverdiyev hələ 2020-ci ildən “Kontakt home”dən uzaqlaşıb, hazırda heç bir əlaqəsi yoxdur. Köməkçi buna baxmayaraq, qazimizin problemləri ilə maraqlanacaqlarını deyərək, onun şəxsiyyət vəsiqəsinin surətini istədi. Ümid edirik ki, yaxın zamanlarda yardımlarını görəcəyik.**



Qeyd edək ki, Qazi Anar Həsənov II Qarabağ savaşına Ağdaş Rayon Hərbi Komissarlığından qatılıb. 32 yaşı var, ailəlidir, iki övladı var. Cəbrayıl-Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edib. Qubadlının Xanlıq kəndində ermənilərin minaatanlardan atdığı mərmi partlaması nəticəsində yaralanıb və müxtəlif xəsarətlər alıb. Sağ qulağı tamamilə eşitmir, hepatit C, ağ ciyər xəstəliklərindən müalicə olunur. Yaralanana qədər özünün dediyi kimi, can-başla döyüşüb. Anar Həsənov Allaha şükür edir ki, keçdiyi döyüş yolu, hərbi qulluqla bağlı heç bir problemi olmayıb:

“Sağ olsun xalqımız, dövlətimiz, vətənpərvər insanlar bizi müharibədə tək qoymadılar. Bu gün də diqqətdənkənarda saxlamırlar. Amma bəzi məmurlar tərəfindən çox incidilirəm. Bir neçə silah yoldaşım var ki, onlar da mənim kimi problemlərlə üzləşir. Məsələn, mən Ağdaş rayonunun Mərkəzi Xəstəxanasından sənəd almağa getmişdim. Orada Nuru Nuriyev adlı bir həkim var, özü də Zəngilan rayonundandır. Onun yanına “forma 88” almağa getmişdim. Məni çox kobud qarşıladı, təhqir elədi. Mən də özümdən çıxdım. O öz təhqirləri ilə məni intihar həddinə çatdırdı. İş prokurorluğa gedib çıxsa da, məsələ ilə bağlı heç bir cinayət işi açılmadı. Qəbul etmədiyim məsələ odur ki, nəyə görə bu həkim hələ də öz vəzifəsində qalır? Həmin o Nuru Nuriyevin iki oğlu olsa da, heç biri döyüşə getməyib. Mən onun rayonu, bəlkə də kəndi üçün döyüşmüşəm. Döyüşdən qayıdandan sonra onun məni belə hala salmağa nə haqqı var? Prezidentin, Ali Baş Komandanın belə bir sərəncamı var idi ki, müharibə iştirakçılarımız, qazilərimiz, əlillərimiz heç bir məmur tərəfindən incidilməsin”.

> *“Mənə deyirlər, necə olur ki, adın işdə gedir, ancaq maaş almırsan?*



Anar daha sonra deyir ki, bu gün bir problem də müharibədə iş qabiliyyətini itirməsi ilə bağlı yaranıb. Müharibədən əvvəl işləyib, normal həyat tərzi olub. Üstəlik, müharibədən əvvəl yenicə yarımçıq tikib köçdüyü evə “Kontakt home” mağazasından ev əşyaları alıbmış:

“Mən də çoxları kimi müharibə başlayanda könüllü olaraq Vətən üçün döyüşə qatıldım. Başqa nə üçün ola bilərdi ki? Heç kəs məni məcburi döyüşə aparmayıb. Bizim Hərbi Komissarlıqla da maraqlansanız bilərsiniz ki, mən o müharibəyə hansı dava-qırğınla getmişəm! Çox istərdim şəhid olum, amma qismətimdə qazi olmaq varmış. Bu gün demirəm ki, kimlərsə mənə nəsə etsin, gətirsin versin. Onların mənə borcları yoxdur. Sadəcə ən azı, hörmət qoymalıdırlar”.

Anar Həsənov deyir ki, müharibədən əvvəl təzə tikdiyi evə köçəndə ev əşyalarını kreditlə alarkən iki adamın da adına kredit götürməli olub. Biri qohumunun adınadır. Onu özünün dili ilə desək, birtəhər ödəyir, amma öz adına olanı ödəyə bilmir. Qazimizin ailəsində 6 nəfər var: iki övladı, həyat yoldaşı, ata-anası. Anası evlərdə təmizlikçi işləyir. Evi dolandıran da odur. “Buna görə “Kontakt home” məni məhkəməyə verib. Məhkəmə çağırıb barəmdə qərar çıxaracaq, Onları başa sala bilmirəm ki, hazırda adım işdə gedir, amma buna görə maaş almıram. Sadəcə özüm işə çıxmıram, psixoloji problemlər yaşayıram. Bunu həkimlər bilir. Türkiyədən gələn 20-yə yaxın könüllü həkim heyətinin komissiyalarından da keçmişəm. Onlar da mənə “ağır kontuziya” diaqnozu qoyublar. Vəziyyət budur. Məmurlar məni son həddə çatdırıb.

Götürək elə “Kontakt home”nin rəhbərliyini, o da zəngilanlıdır. Neçə dəfələrlə bildirmişəm ki, işləmirəm, müdiriyyətimlə maraqlanın. Mənə deyirlər, necə olur ki, adın işdə gedir, ancaq maaş almırsan? Deyirəm, qardaş, Prezidentin sərəncamı ilə heç bir idarə heç bir müharibə iştirakçısını işdən çıxarmır, bu da çıxarmır. Deyir, sağal gəl, işlə. Mənim də işim satıcılıqdır. Bilirəm ki, mən müştərilərlə işləyirəm, birdən aqressiv davranaram, mağazanın imicinə ziyan gətirə bilərəm. Üstəlik, ağ ciyərimdən, qaraciyərimdən müalicə alıram. Müalicəyə görə YAŞAT Fonduna müraciət elədik, sağ olsunlar, bir dəfə yardım elədilər. Keçən ayın 26-da “Cəsur döyüşçü” medalı bizə təqdim olunanda dedilər ki, iyul-avqust aylarında yenə müalicə ilə bağlı sizə ödəniş olunmalıdır. Hələlik müraciət eləməmişəm. Gözləyirəm, bir müddət keçsin, sonra müraciət edim. Borc yiyələrindən məni hədələyənlər var, qapıma gələnlər var. Mən də bu vəziyyətdə heç nə edə bilmirəm. Kiminsə borcu deyil ki, mənə nəsə eləsin, sadəcə insan var, başa düşür, gözləyir, insan da var ki, gözləmir. Hər şey üst-üstə gələndə də əl ətəkdən üzülür”...

Ümid edirik, qazimizin üzləşdiyi bu problemlər tezliklə həllini tapacaq.

***✍ Tahirə Qafarlı***

***Xəzər dənizində baş verən müəmmalı yanğın əhali arasında təşvişə səbəb oldu. Ardınca SOCAR və Fövqəladə Hallar Nazirliyindən rəsmi açıqlama gecikmədi. Məlum oldu ki, baş verən partlayışa səbəb ərazidə yerləşən “Daşlı” palçıq vulkanıdır. Vulkan Bakıdan, təxminən, 75 km cənub-qərbdə yerləşir. Azərbaycanın aktiv vulkanlarından hesab olunur. Daha əvvəl 1945 və 1920-ci illərdə indiki kimi odlu püskürmələri qeydə alınmışdır. Hafta.az-ın əməkdaşı Xəzərdə yerləşən bu və digər vulkanlar, onların törədə biləcəyi real təhlükələr ilə bağlı mütəxəssis ilə həmsöhbət oldu.***

# Xəzərdəki palçıq vulkanlarının bir çoxu fəaldır

**■ Geologiya və Geofizika İnstitutunun “Palçıq vulkanizmi” şöbəsinin aparıcı elmi işçisi, dosent Orxan Abbasovun sözlərinə görə, dünən baş verən palçıq vulkanının təsir baxımdan qaz strukturları ilə heç bir əlaqəsi yoxdur.**

Palçıq vulkanının püskürmə sahəsi istismarda olan yataqlardan müəyyən qədər məsafədə yerləşir. Ona görə də heç bir risk müşahidə edilmir:

“Hər hansı bir vulkanın ətrafında infrastruktur, yaxud fəaliyyət nəzərdə tutulursa, burada mütləq mütəxəssis rəyi qeydə alınmalıdır. Bundan sonra palçıq vulkanı ilə nəzərdə tutulmuş fəaliyyət sahəsi arasında minimal məsafə təyin edilməlidir. Bu nöqteyi-nəzərdən qeyd edə bilərəm ki, əgər vulkan ərazidən kifayət qədər uzaqdırsa, püskürmənin heç bir problemi yoxdur. Vulkanpüskürməsi sadə təbiət hadisəsidir. Öz-özünü təmizləyir. Bəzi palçıq vulkanları var ki, onlar fərdi yaşayış evləri və müxtəlif təyinatlı infrastrukturlara yaxındır. Abşeronda bu cür vulkanlara rast gəlmək mümkündür. Vulkanların krater sahəsində layihələndirilib fəaliyyət göstərən obyektlər üçün onun püskürməsi olduqca təhlükəli hesab edilir”.



**Orxan Abbasov,**
“Palçıq vulkanizmi” şöbəsinin aparıcı elmi işçisi, dosent

Mütəxəssis vurğuladı ki, hazırda Azərbaycanda 350-dən çox palçıq vulkanı var. Onun 150-dən artığı Xəzər dənizində yerləşir: “Xəzər dənizində baş vermiş palçıq vulkanı püskürmələri heç bir risk formalaşdırmır. Palçıq vulkanının aktivliyinə gəldikdə isə məlumat üçün deyə bilərəm ki, onların 2 cür aktivliyi var:

**– gündəlik fəaliyyət,**

**– püskürmə fəaliyyəti.**

Xəzər dənizində həm sönmüş, həm fəaliyyəti olmayan, həm də aktiv palçıq vulkanları var. Onlardan neçəsinin gündəlik və yaxud digər fəaliyyətləri ilə bağlı dəqiq məlumat olmasa da, deyə bilərəm ki, çoxu aktivdir”.

Palçıq vulkanlarının püskürmə tezliyinə gəldikdə, həmsöhbətimiz bununla bağlı dəqiq rəqəmlərin olmadığını söylədi: “Hər bir palçıq vulkanının püskürmə ilə bağlı xarakterik dövrü var. Dünən püskürən Daşlı palçıq vulkanı sonuncu dəfə 1945-ci ildə, ondan öncə isə 1920-ci ildə püskürüb. Periodlar arasında hər hansısa qanunauyğunluq tutmaq olmur.

Vulkanların püskürmə vaxtı bir çox faktorlardan asılıdır. Regionda baş verən seysmik aktivlik də vulkanı püskürməyə təhrik edə bilər. Ona görə də bu təbiət hadisəsinin vaxtını öncədən vermək qeyri-mümkündür”. O ki qaldı alov sütununa və meydana gələn güclü partlayışa, elmi işçi bildirir ki, alovun hündürlüyündən asılı olmayaraq, palçıq vulkanı hər zaman palçıq püskürür:

“Palçıq vulkanlarının xarakterik xüsusiyyəti belədir ki, öncə uğultu səsləri eşidilməyə başlayır, ardınca güclü partlayış olur. Vulkanın təbiətindən asılı olaraq, alovlu və alovsuz püskürmə meydana gəlir. Ümumilikdə, palçıq yer səthinə çıxmamışdan qabaq alov sütunu qeydə alınır. Məsələn, dünən püskürən vulkanda alov sütununun hündürlüyü 500 metrdən çox olub. Bundan başqa, vulkanın tərkibində neft çoxdursa, qara tüstü, qaz çoxdursa, sadəcə şəffaf alov havalanır. Ardınca isə yer səthinə palçıq çıxır. Bəzən onun həcmi milyon kubmetrlərlə ölçülür”.



Qeyd edək ki, ötən gecə püskürən Daşlı vulkanının alov sütununun hündürlüyü 500 metrdən artıq olub. Bundan başqa, AMEA Geologiya və Geofizika İnstitutunun ”Palçıq vulkanizmi” şöbəsinin məlumatına görə, şimalda yerləşən nisbətən böyük ada vulkanlarına, o cümlədən Səngi-Muğan, Xarə-Zirəyə görə Daşlının püskürdüyü palçıq kütləsi kiçik sahədə yayılmışdır. Vulkanın dənizdə yerləşməsi və palçığın gec quruması ilə əlaqədar hazırda hadisə yerində hər hansı tədqiqat işinin aparılması qeyri-mümkündür.

***✍ Banu***




**■ Siyasi partiyalar və dini qurumlar çap mediası istisna olmaqla, media orqanları təsis edə bilməyəcək. Bu, “Media haqqında” qanunun ilkin versiyasında əksini tapıb.**

Siyasi partiyaların və dini qurumların audioviziual media (televiziya kanalı), onlayn media orqanları və informasiya agentlikləri təsis etməsinə icazə verilməyəcək. Layihəyə əsasən, dövlət orqanlarının da çap mediası təsis etmək sahəsində hüquqları məhdudlaşdırılır. Yalnız istisna hallarda müvafiq icazə alınmaqla, dövlət orqanı çap media orqanının təsisçisi ola biləcək. Çap mediasının təsisi sahəsində məhdudiyyət qanunverici hakimiyyət (Milli Məclis) və məhkəmə hakimiyyətinə (Konstitusiya Məhkəməsi və Ali Məhkəmə) şamil edilmir.



**■ Beynəlxalq Valyuta Fondu (BVF) xəbərdarlıq edib ki, ABŞ-da artan inflyasiya Federal Ehtiyat Sistemini (FED) faiz dərəcələrini gözləniləndən daha tez artırmaq məcburiyyətində qala bilər ki, bu da inkişafda olan ölkələrin iqtisadi bərpasına mənfi təsir göstərəcək.**

Bu barədə BVF-nin direktoru Kristalina Georgiyeva bloqunda yazıb. ”Bilirik ki, ABŞ-da sürətlənmiş bərpa prosesi artan ticarət sayəsində bir çox ölkəyə fayda gətirəcək, inflyasiya gözləntiləri isə hələlik sabit olaraq qalmaqdadır. Bununla yanaşı, inflyasiya və ya inflyasiya gözləntilərində daha davamlı artım riski var. Bu da potensial olaraq ABŞ-ın pul-kredit siyasətinin gözlənilən sərtləşdirilməsi ilə nəticələnə bilər”, - K. Georgieva bildirib.



**■ Haiti Prezidentinə sui-qəsd olub. Bu barədə ölkənin keçid Baş naziri Klaude Cozep bildirib. Onun sözlərinə görə, Prezident Xovenel Moisenin şəxsi iqamətgahına gecə saatlarında hücum olub və o güllələnib.**

”Kimliyi hələlik müəyyənləşdirilməyən bir qrup şəxs gecə Prezidentin iqamətgahına hücum edib, bu şəxslərin bəziləri ispan dilində danışıb. Onlar Prezidenti güllələyiblər. Prezidentin həyat yoldaşı isə yaralanıb. Birinci xanım xəstəxanaya yerləşdirilib”, - deyə Baş nazirin bildirib. Haiti Prezidentinin həyat yoldaşı, ölkənin birinci xanımı Martine Mouse də sui-qəsd nəticəsində aldığı yaralardan ölüb. Bildirilib ki, o, xəstəxanada dünyasını dəyişib.



**■ Bu ilin yanvar-iyun ayları ərzində Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə dövlət büdcəsinə 2 038 235,4 min manat daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,9% çoxdur.**

Hesabat dövründə dövlət büdcəsinə daxil olan gömrük rüsumlarının həcmi ötən ilin analoji dövrü ilə müqayisədə 15,1% artaraq 557 547,1 min manat təşkil edib. ƏDV üzrə daxilolmalar isə 4,7% azalaraq 1 382 115,9 min manata bərabər olub. Aksizlər üzrə cari ilin birinci yarısında daxilolmalar 16,7% artaraq 77 826,9 min manat təşkil edib. Yol vergisi üzrə daxilolmaların həcmi 20 745,5 min manat təşkil edib ki, bu da ötən ilin analoji dövründə qeydə alınan göstəricidən 11% çoxdur.



**■ Təhsildə Keyfiyyət Təminatı Agentliyi iyun ayı üzrə xarici diplomların tanınmasına dair statistikanı açıqlayıb.**

Agentlikdən hafta.az-a verilən xəbərə görə, icrası 16 gün ərzində tamamlanan 208 müraciətçinin 144-ü barədə müsbət qərar veriləرək müvafiq şəhadətnamələr təqdim edilib, 64 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb. Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 33, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 27, qeyri-ənənəvi təhsil formasında təhsil alması səbəbi ilə 2, digər səbəblər üzrə 2 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.



**■ Rusiya sərhədçilərinin Ermənistanın Azərbaycanla həmsərhəd Sünik və Qeqarkunik bölgələrində yerləşdirilməsi imkanları tərəflər arasında müzakirə olunur.**

Bu barədə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Armavirdə ”Rusiya mərkəzi”nin açılışında jurnalistlərə deyib. Səfir bildirib ki, Ermənistanın Azərbaycanla sərhəd Sünik bölgəsində Rusiya sərhədçilərinin postları var: “Onlar vəziyyətin sakit və stabil olmasına töhfə verirlər. Rusiya sərhədçilərinin mövcudluğunun genişləndirilməsi üçün müzakirələr aparılır. Düşünürəm ki, hər şey Ermənistanın təhlükəsizliyi, sərhəddə sabitliyin təmin olunması və üçtərəfli formatda qəbul edilmiş razılaşmaların reallaşması maraqlarına uyğun müəyyən olunacaq”.

# "Əlcəzair xalqı qəhrəmanlıq dastanı yazdı"

## Tarix



**Əhməd Beggar,**
Kasdi Merbah Universitetinin professoru

***İyulun 5-də dost Əlcəzair xalqı Müstəqillik Gününü qeyd etdi. Əslində, hər bir xalqın tarixində Müstəqillik Günü mövcuddur, amma tam əminliklə deyirəm ki, heç bir xalq öz azadlığını məhz əlcəzairlilər qədər əzab-əziyyət çəkərək, milyonyarım şəhid verərək qazanmayıb. Nə də ki heç bir xalq müstəqilliyini əldə etdikdən sonra, onillər ərzində şəhidlərinin kəllələrinin işğalçı ölkə muzeyində sərgiləndiyini bilib, mənəvi əzab yaşamayıb. Öz milli haqlarını və vazkeçilməz müstəqil dövlətçiliyini qazanmaq üçün bu qədər məhrumiyyətə qəhrəman Əlcəzair xalqı dözüb. Hər halda, 59 ildir azad yaşayan xalq yavaş-yavaş ayaqda durur, elmini-təhsilini, iqtisadiyyatını, xarici siyasətdə mövqeyini və nəhayət, şəhid qanına boyanmış torpaqlarına bir daha yad qüvvələr ayaq basmasın deyə, ordusunu gücləndirir. Mədəniyyətindən, məişətindən söz açmadım, zatən Əlcəzair xalqı tarix boyunca öz milli mədəniyyəti ilə örnək olub...***

Əlcəzairin Müstəqillik Günü ilə bağlı bu ölkənin tanınmış elm adamlarından biri, Kasdi Merbah Universitetinin professoru Əhməd Beggarla söhbətləşib, fikirlərini oxucularımızla bölüşmək istədim.

Hər halda, Əlcəzairlə yanaşı, Tunis, Misir, Hindistan, İndoneziya, İordaniya, Türkiyə və sair ölkələrdə elmi konfranslarda iştirak edərək, öz sahəsində dünya elminə töhfələrini verən cənab Beggarın dedikləri hər kəsə maraqlı ola bilər.

Müsahibimiz söhbətə əlcəzairlilərin pandemiya şəraitində bayram ovqatından söz açmaqla başladı:

- Sadəcə bilmək lazımdır ki, Əlcəzair xalqı şanlı inqilabını və ya müstəqilliyini qeyd etmək üçün heç də hər ilin bu gününü gözləmir, əksinə, əlcəzairlilər bütün bunları hər gün yaşayır, həyatlarının hər anında öz qəhrəmanlarını, vaxtilə göstərdikləri şücaəti xatırlayır və ürəklərinin hər döyüntüsündə Fransa Ordusunun vaxtilə törətdiyi cinayətlərin bəlasından əziyyət çəkir. Hər biri öz sahəsində ölkəmizin gələcəyi olan insanlarımız bu möhtəşəm günün qeyd olunmasını da qaçırmırlar. Ən gözəli isə Müstəqillik Gününün Gənclər Günü ilə əlaqələndirilməsidir. Beləliklə bu, bizim üçün vahid bayram təntənəsinə çevrildi - İstiqlal və Gənclik Günü. Bu gün gənclərimiz ölkəmizin istiqlalının təminatçısıdırlar. Təəssüflər olsun ki, bu il Müstəqillik və Gənclər Gününü əvvəlki kimi şux ovqatla qeyd etmirik. Bütün dünyaya bəla kimi yayılan koronavirus pandemiyasının ağırlığını hər birimiz öz üzərimizdə hiss edirik. Buna baxmayaraq, bayram təntənəsini qeyd etmək üçün dövlətin bir sıra proqramları var. Böyük salonlarda seminar və konfranslar düzənlənəcək, şəhər meydanlarında, əlbəttə, virusa qarşı tibbi protokolun qaydalarına hörmət göstərərək tədbirlərimiz davam edəcək. Eyni zamanda, tarixi hadisələrdən bəhs edən pyeslər səhnələşdiriləcək, əsasən, inqilabcoşqulu mahnılardan ibarət konsertlər veriləcək, efirlərimizi inqilabi filmlər bəzəyəcək və sair.

> *"Fransa heç vaxt Əlcəzairdə işlədiyi cinayətləri qəbul etməyib*

***- Fransanın 1830-cu ildə başlayan işğalı nə az-nə çox, düz 132 il davam etdi və bu müddət ərzində Əlcəzair xalqı çox güclü mübarizə apardı. Bildiyim qədər, 1847, 1871 və 1881-ci illərdə Əlcəzair xalqı fransızlara qarşı ciddi müqavimət hərəkatı yaratmağı bacardı, üsyanlar etdi, amma hər birində son anda məğlub oldu. Əlcəzair dövlətinin torpaqları, 132 il zəncirdə qalmış azadlığı 1954-cü ildən başlayaraq, 1,5 milyon insanın şəhid olması ilə nəticələnən 8 illik mübarizə nəticəsində azad edildi. Sizcə, xalq əvvəlki mübarizələrdə niyə qalib gələ bilmirdi?***

- Doğru deyirsiniz ki, Fransanın işğalı 132 il davam etdi. Yəni Fransa, təxminən, bir yarım əsr ərzində Əlcəzairdən nə vaxtsa gedəcəyini heç düşünmürdü. Fransızlar Əlcəzair torpaqlarına ayaq basdıqları ilk gündən əlcəzairlilərin güclü müqaviməti ilə üzləşib. Onlar ilk gündən çalışıblar ki, Əlcəzairi bütün mənalarda - dil, din, tarix, mədəniyyət, iqtisadiyyat və sair sahələrdə Fransadan asılı əraziyə çevirsinlər. Əlbəttə, əlcəzairlilər var qüvvələri ilə işğalçılara qarşı çıxırdılar. İlk başda Zaatşa və Çaanbada başlayan üsyanlar dövrün məşhur xalq qəhrəmanlarının liderliyi altında sürətlə ölkənin hər yerinə yayılıb (Avlad Sidi Şeyx, Tuareg, Əmir Abdelkader, Şeyx Bouamama, Şeyx əl-Məqrani, Şeyx əl-Haddad, Lalla Fatima Nsoumer...). Həmin üsyanların pərakəndəliyi, vahid mərkəzdən idarə edilməməsi işğalçılar üzərində qələbəyə imkan verməyib. Məhz bu pərakəndəlik Əlcəzairin Fransa tərəfindən işğalını 1 noyabr 1954-cü il tarixinə - mübarək bazar ertəsi gününədək 124 il uzadıb. Bəli, 8 il şiddətli mübarizə getdi, xalq işğalçıları torpaqlarımızdan qovmaq üçün 1,5 milyon övladını şəhid verdi. Özü də qeyd edim ki, bu 1,5 milyon insan ancaq 8 il ərzində şəhid olub, əvvəlki 124 ildə həlak olanların sayını da üstünə gəlsək, rəqəm daha da böyüyər. Hər halda, milyon yarım şəhid verən Əlcəzair xalqı bəşər tarixinə qəhrəmanlıq dastanı yazdı.

***- Yeri gəlmişkən, haradansa oxumuşdum ki, ölkədə geniş imkanları əlində cəmləyən fransız əhali 1954-cü il noyabrın 1-də, məhz bazar ertəsi katoliklərin müqəddəs bayramını qeyd edirmiş. Məhz fransızlar bayram edərkən Əlcəzair xalqı ölkənin bütün şəhərlərində azadlıq mübarizəsinə start verir. Azadlıq mübarizəsinin miqyası o qədər böyük olub ki, fransızlar yuxarıda qeyd etdiyimiz kimi, milyon yarım əlcəzairlini şəhid etsələr də, sonda artıq bu torpaqlarda qala bilməyəcəklərini başa düşərək, Əlcəzairi tərk etmək qərarına gəliblər. Mənim üçün maraqlıdır: inqilabın katolik bayramının keçirildiyi gündə başlaması təsadüf idi, yoxsa Əlcəzair vətənpərvərləri tərəfindən hazırlanmış xüsusi plan?***

- Xalq hərəkatının altı lideri - Larbi Ben Mhidi, Məhəmməd Bividyaf, Diduş Murad, Rabih Bitat, Mustafa Bin Buleyd və Kərim Bilqasim bir araya gələrək inqilab gününü təyin ediblər. Onlar mübarizənin start tarixi olaraq 1 noyabr tarixini seçiblər və bildirişi hərəkat üzvlərinə paylayıblar. Təyin edilmiş bazar ertəsi günü İslam dinində müqəddəs sayılır. Odur ki, hesab edirəm bu qərarın katoliklərin bayramı ilə qətiyyən əlaqəsi olmayıb. Baxın, 1 noyabr qərarının ən vacib maddələrində göstərilir: İslami şəriət prinsipləri çərçivəsində demokratik Əlcəzair dövlətinin qurulması və inqilab gecəsi üçün hər baxımdan şifrə - Uqba və Xalid. Bu iki hörmətli səhabənin adı inqilabın başlandığını göstərən paroldur. Bütün bunlar göstərir ki, 1952-ci il inqilabı qətiyyən təsadüfi deyil - çox yaxşı planlaşdırılmış, xüsusi ssenari əsasında icrasına başlanılmış proses idi. Fransanın ilk işğal dövründə, qəhrəman əlcəzairlilərin işğalçılara qarşı dağınıq və əlbəttə, uğursuz mübarizəsini analiz edən hərəkat liderləri o vaxt buraxılan səhvləri diqqətlə nəzərə alıb, hər detalı mükəmməl düşünmüşdülər. Odur ki, bu inqilab bir insanın və ya bir partiyanın deyil, bütöv xalqın azadlıq mübarizəsi oldu.



***- Görəsən, azadlıq müharibəsi iştirakçıları, şəhid ailələri, o vaxt apardıqları mübarizənin nəticəsi olan indiki müasir və qüdrətli vətənlərində necə yaşayırlar, dövlətdən hər hansı yardım, məsələn, təqaüd, sosial, tibbi dəstək alırlarmı?***

- Təbii ki, Əlcəzair xalqı və hökuməti, inqilab iştirakçılarına hər zaman kömək əlini uzadıb, diqqət və qayğılarının bu şərəfli insanlardan əskik etməyiblər. İnqilab iştirakçılarının ən vacib ehtiyaclarını ödəmək üçün çoxsaylı proqramlar icra olunub, onlara maddi dəstək verilib və sair. Vətənimizi işğaldan qurtaran və Əlcəzairə azadlıq qazandıran həmin insanların qayğısına qalmaq xalqımızın və hökumətimizin əsas vəzifəsidir.

***- Universitetdə oxuyarkən, Əlcəzairlə bağlı mühazirədə professor bizə 1954 - 1962-ci illərdəki mübarizənin şüarının belə olduğunu bildirdi: "Dilim ərəb, dinim İslam, ölkəm Əlcəzair!". Şüarda yazılanları insanlar əldə etdimi? Zənnimcə, "Dilimiz ərəb dilidir" şüarı kifayət qədər real deyil və ya sadə kütlənin dilidir. Əlcəzairin təhsilli və özünü elit təbəqədən sayan qismi bütün işlərini fransız dilində aparır. Eyni şey qonşunuz Mərakeş və Tunisə də aiddir...***

- Əvvəlcə söz açdığınız şüarın dəqiq yazılışını bildirim: "İslam mənim dinimdir, ərəb mənim dilimdir və Əlcəzair mənim ölkəmdir". Bu, 130 illik Fransa işğalından sonra qurulan müstəqil dövlətimiz üçün Əlcəzair Müsəlman Alimlər Birliyi tərəfindən ortaya atılan ilk şüardır. Bu şüar Fransaya bildirirdi ki, əlcəzairli ölmədi, fransız da olmadı və heç zaman da olmayacaq. Ərəb dili bu gün Əlcəzairin rəsmi dövlət dilidir və gələcəkdə də dövlət dili olaraq qalacaq. Fransız dilinin təsirinə gəlincə, bu dil uzun müddət Əlcəzairdə hakim olduğu üçün, müstəmləkə irsi kimi qalıb. Müasir Əlcəzairdə əvvəlki illərlə müqayisədə fransız dilinin miqyası və təsiri daralmaqdadır. Belə demək olarsa, fransız dili ölmək üzrədir. Bu gün ölkəmizdə təhsil yüz faiz ərəb dilində aparılır və yeni qloballaşmanın işığında ingilis dilli təhsilin dairəsi genişlənməkdədir - gənclər daha çox ingilis dilini öyrənməyə meyl edir. Hə, onu da deyim ki, Ərəb Dili Ali Şurası, bu dili qorumaq üçün qurulub.

***- Maraqlıdır, Fransa keçmişinə dönüb baxdımı? 132 illik işğal dövründə Əlcəzairdə etdiklərinə görə əlcəzairlilərdən üzr istədimi? Ümumiyyətlə, Paris Əlcəzairə 132 illik işğal dövründə vurduğu ziyana görə hər hansı formada təzminat ödədimi?***

- Əlbəttə ki, yox. Fransa heç vaxt Əlcəzairdə işlədiyi cinayətləri qəbul etməyib. Elə bu səbəbdən də Paris indiyədək Əlcəzairə və ya fərdi şəkildə əlcəzairli insanlara hər hansı formada maddi təzminat ödəməyib. Bu müstəvidə səslənən fikirlər söz olaraq qalmaqdadır.

***- Fransadakı Əlcəzair şəhidlərinin cəsədlərinin, xüsusən də kəllə sümüklərinin qaytarılması məsələsi nə yerdə qaldı? Prezident Tebbunun ölkəsini sevən və xalqın milli dəyərlərini qoruyan lider olduğunu düşünürəm. Bir azərbaycanlı jurnalist kimi, mən cənab Tebbunun vətənpərvərliyini və gördüyü işləri yüksək qiymətləndirirəm...***

- Onlar tam cəsədlər deyil, şəhidlərin sümüklərinin qalıqlarıdır. Müqavimət döyüşçülərinə məxsus bəzi kəllə sümükləri Qurtuluş Günü Əlcəzairə qaytarılıb. Təsəvvür edirsiniz: insanların başlarını kəsib, Parisdəki İnsan Muzeyində sərgiləyiblər... Aparılan danışıqlar nəticəsində məhz həmin muzeydə saxlanılan və əlcəzairlilərə məxsus olduğu təsdiqlənmiş kəllə sümükləri qaytarılıb. Qalan kəllələrin də Əlcəzairə gətirilərək, şəhid qanına boyanmış ata-babalarımızın torpaqlarında dəfn edərək, ruhlara dinclik vermək üçün iki ölkə arasında danışıqlar davam etdirilir. Bu arada, ölkəmizin prezidenti haqqında yüksək fikirlərinizə görə ayrıca təşəkkür edirəm.

***- Bir ziyalı və vətəndaş olaraq deyin: Əlcəzair dövləti və xalqı inqilabdan sonrakı 59 ildə nə qazandı və ölkənizin bu gün dünya gücləri arasında yerini necə görürsünüz?***

- Ölkəm, müstəqillik qazandığı andan bəri, mənfur müstəmləkəçilikdən sonra tam gücü ilə ayağa qalxmağa, bütün sahələrdə - siyasi, sosial, iqtisadi, təhsil, elmi, mədəni müstəvilərdə çatışmazlıqları aradan qaldırmağa və güclənməyə çalışır. Eyni zamanda, Əlcəzair çalışır ki, beynəlxalq forum və seminarlarda səsi daha yaxşı eşidilsin. Bunun üçün ölkəmizin potensialı çox böyükdür. Bu gün Əlcəzair beynəlxalq və regional xarakterli bir sıra problemlərin həllində vacib rol alır. Bütün bunlar Əlcəzairin mövcud qüdrətindən xəbər verir.

*✍ Vüsal*

## Problem



# Hasarsız çimərlik arzusu

***İsti yay günlərində asudə vaxt keçirməyin ən yaxşı yolu dənizə getməkdir. Bu gün çimərliklərə üz tutan vətəndaşlar yaranmış mənzərədən şikayətçidirlər. Hər biri ilə ayrı-ayrılıqda söhbət aparsaq da dərdləri birdir. Deyirlər ki, "dar çərçivədə, 5-6 çimərliyin ümidinə qalmışıq. Allah bizə bu boyda dəniz verib, biz də ona hasardan baxırıq". İndi vətəndaşların cəmi bir istəyi var: işdən məsul olan məmurlar gəlib, araşdırmalarını yerində aparsın, sahilboyu gəzib vəziyyətlə tanış olsunlar.***

## *Nazirləri sahilboyu gəzintiyə dəvət edirik*

■ **Azərbaycan Dövlət Pedaqoji Universitetinin biologiya fakültəsinin professoru, biologiya elmləri doktoru Rauf Sultanov hafta.az-a açıqlamasında problemin insanlarla yanaşı biloji aləmə də ziyanlarından bəhs etdi.**

Bildirdi ki, çimərliklərin hasara alınması həm insanlara həm də digər canlılara olduqca mənfi təsir göstərir. Bu hasarlar birbaşa olaraq canlıların miqrasiya etməsinin qarşısını alır: "Heç olmasa hasarı çəkəndə onu dəmir tellərlə edərdilər. O bioloji olaraq hazırda çəkilən hasarlardan nisbətən yaxşıdır. Hasarların çəkilməsi çox böyük qəbahətdir, canlı aləmin məhv olmasına səbəb olur. Bir də görürük ki, hasarların uzunluğu sahil boyunca 4-5 kilometrə qədər olur".

Ekspert aidiyyatı qurumların işə qeyri ciddi yanaşmasından şikayətlənib, həlli ilə bağlı bir sıra təkliflər də irəli sürdü:

"Sahil boyu çimərliklərin hasarlanmasının qarşısını almaq üçün Nazirlər Kobineti xüsusi bir komissiya yaratmalıdır. Çünki uzun illərdir aidiyyəti qurumlar bu məsələni kökündən həll edə bilmir. Görünür onlar hasarları tikən şəxslərlə bacarmırlar. Mövzuya ciddi yanaşmaq lazımdır. Çimərlik xalqın, millətindir. Söz azadlığımız olduğu kimi çimərlik azadlığımız da var. Kim gəldi hasarlaya bilməz. Harda görülüb ki sahil hasara alınsın? Müəyyən infrastruktur qurub, pullu çimərlik düzəltməkləri hardasa başa düşüləndir. Ancaq hasar çəkmək yolverilməzdir. Yaxşı olardı ki problem parlament səviyyəsinə qədər qaldırıla və həllinə ciddi adımlar atıla".

Hafta.az olaraq müvafiq qurumların rəhbərliklərinin mövcud vəziyyəti yerində araşdırmaq, daha doğrusu nazirlər, icra başçılarının sahilboyu gəzərək hasar əsarətinə son qoymaqla bağlı vətəndaşların çağırışlarını elə məsul təşkilatlara da çatdırdıq. Cavablar isə olduqca "maraqlıdır".

■ **İlk olaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi mətbuat xidmətinin rəhbəri İradə İbrahimova ilə əlaqə saxladıq.** Qurum rəsmisi bildirdi ki, hasarlanmış çimərliklərə nazirlik yox, yerli icra orqanları nəzarət edir.

■ **Ardınca isə məsələyə münasibət bildirən Bakı Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsrafil Kərimov söylədi ki, hasarlanan çimərliklərlə bağlı məsələ Əmlak Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən tənzimlənir. Söküntü işləri ilə də sözügedən qurum məşğul olur.**

Təəssüflər olsun, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri üzrə Dövlət Komitəsindən sorğumuza cavab ala bilmədik. Hazırda komitədə struktur dəyişikliyi olduğu üçün mətbuat xidmətinə rəhbər də təyin edilməyib.

Rəsmi dairələrin məsələyə münasibətindən belə görünür ki, hələ bu il də vətəndaşların arzuladığı "Azad və hasarsız çimərlik" xülyası gerçək olmayacaq.

*✍ Banu*


# "Azercell"in dəstəyi ilə məktəblilərimiz iki medal qazanıblar

**19-25 iyun 2021-ci il tarixlərində Sinqapurda təşkil olunan 33-cü Beynəlxalq İnformatika Olimpiadasında (IOI 2021 Singapore) "Azercell"in dəstəklədiyi Azərbaycan komandasının üzvləri ölkəmizi növbəti dəfə uğurla təmsil edərək 2 bürünc medal qazanıblar.**

90 ölkədən 351 şagirdin qatıldığı onlayn formatlı müsabiqədə fərqlənən iştirakçılar sırasında Gəncə şəhər M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Əziz Hüseynov və Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin 10-cu sinif şagirdi Səid Nəsibov da olub. Onlar müsabiqənin bürünc medalına layiq görülüblər. Olimpiadanın nəticələri yarışmanın Baş Assambleyasında səsvermə ilə rəsmiləşib. Xatırladaq ki, Əziz Hüseynov ötən il də bu olimpiadada uğurla çıxış edərək bürünc medala layiq görülüb. Beləliklə də, Ə.Hüseynov birdən çox IOI medalı qazanmış ilk həmvətənimiz olub. Səid Nəsibov da bu yarışda ilk dəfə iştirak etməsinə baxmayaraq, uğurlu nəticə göstərib.

"Azercell" şirkəti informatika üzrə istedadlı şagirdlərin aşkar edilməsi və onların inkişafı üçün təşəbbüsləri davamlı olaraq dəstəkləyir. Artıq 2017-ci ildən etibarən məktəblilərimizin Beynəlxalq İnformatika Olimpiadalarına hazırlıq prosesi "Azercell Telekom" şirkətinin dəstəyi ilə həyata keçirilir. Şirkət Azərbaycanın müxtəlif bölgələrindən və paytaxt məktəblərindən onlarla şagirdin hazırlıq prosesinə cəlb edilməsinə yardımçı olub. Hazırlıqdan keçən şagirdlərimiz dəfələrlə mötəbər bilik yarışlarında yüksək nəticələr əldə ediblər. İndiyədək azərbaycanlı şagirdlər informatika fənni üzrə bilik yarışlarında 27 medal qazanıblar.

# Vətəndaşlar "Asan İmza" xidmətindən pulsuz istifadə edəcəklər

**"Bakcell" abunəçiləri 1 iyul 2021-ci il tarixindən başlayaraq "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqını ödəməyəcəklər.**

Bu imkandan 20 iyun 2020-ci il tarixindən xidmətə qoşulan vətəndaşlarla yanaşı, qeyd olunan xidməti 1 iyul 2021-ci il tarixindən əldə edən bütün vətəndaşlar yararlana biləcəklər. Xatırladaq ki, "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqı, 2.50 AZN təşkil edirdi. Xüsusilə vurğulanmalıdır ki, "Asan İmza" xidmətini mövcud olan mobil nömrədə aktivləşdirmək olar və yeni nömrənin əldə edilməsinə ehtiyac yoxdur. "Asan İmza" xidmətinin aktivləşdiyi nömrədən istifadə etdikdə, həmin nömrəyə dövlət qurumları və digər elektron xidmət təchizatçılarından birbaşa olaraq, vacib ismarıcları qəbul etmək mümkün olacaq.

Bu xidməti aktivləşdirmək üçün abunəçilər şəxsiyyət vəsiqəsi ilə Bakcell Müştəri Xidmətləri Mərkəzlərindən birinə müraciət etməli və burada "Asan İmza" xidmətini aktivləşdirərək "Asan İmza" SİM kartını əldə etməlidirlər. Daha sonra isə SİM kartda Asan İmza sertifikatlarını aktivləşdirmək üçün Dövlət Vergi Xidmətinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət olunmalıdır. "Asan İmza" xidmətindən fiziki şəxslər (vətəndaşlar), hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, dövlət və özünüidarəetmə orqanlarının nümayəndələri istifadə edə bilərlər. Qeyd edək ki, "Vətəndaş" tipli "Asan İmza" xidmətini tamamilə ödənişsiz əsaslarla əldə edən abunəçilər Azərbaycanda dövlət və özəl qurumlar tərəfindən təqdim olunan 1000-dən çox elektron xidmətdən yararlanmaq imkanına malikdirlər.

# Süd və süd məhsulları

## Menyu

***Süd və süd məhsulları dedikdə, ağla ilk gələn qatıqdır. Hər iki məhsul insanların gündəlik qida rasionunda mühüm yerə malikdir. Xüsusən də milli mətbəximizdə süd və qatıqdan hazırlanmış səhər yeməkləri, sərinlədən içkilər mütəmadi olaraq istifadə edilir. Mütəxəssislər hesab edir ki, hər gün istehlak edilən 1 kasa qatıq bir müddət sonra orqanizmə faydalar verir. Belə ki, süd məhsulları maddələr mübadiləsini tənzimləyir, həzm prosesini asanlaşdırır.***




### Ekspertlər yayın qızmar günlərində əhalini diqqətli olmağa çağırır

Tərkibində B1, B2, B12 və D vitamini olan süd və süd məhsulları mədəbağırsaq xəstəlikləri yaradan mikrobları məhv edir. Süd məhsullarının tərkibində mikroelementlər, dişləri və sümükləri möhkəmləndirən kalsium və fosfor mövcuddur. Kalsium sinir sisteminin, gözlərin sağlamlığında böyük rol oynayır. Zəhərlənmə təhlükəsi hiss edilən insana ilkin yardım kimi qatıq içirilir. Məsələ burasındadır ki, belə faydalı məhsuldan düzgün istifadə etmək başlıca şərtdir. Kimyəvi qatqılarla hazırlanmış və düzgün şəraitdə saxlanmayan süd və qatığın orqanizmə faydasından çox ziyanı olur.

**Hafta.az hər iki məhsulla bağlı yerli satış obyektlərində araşdırma apardı.** İlkin olaraq diqqətinizə çatdıraq ki, iri mağazalarda "Kənd qatığı", "Kənd məhsulları" adı ilə müxtəlif markaların süd və qatıqlar satılmaqdadır. Belə məhsulların zavodlarda istehsal edildiyi isə hər kəsə məlumdur. Küçədə pərakəndə şəkildə şüşə balonlarda satılan qatıqlara nisbətən, dadları bir qədər şirin və xoşagələn olan bu məhsulların saxlanma müddəti 5 gündən 1 həftəyə, hətta 1 aya qədərdir. Qiymətlərə gəldikdə isə iri mağazalarda, şüşə qablarda olan qatıqların 2 kiloqramı 4-5 manat arası dəyişir. Küçələrdə pərakəndə şəkildə alıcılara təklif edilən südün 1 litri 1, qatığın 2 kiloqramlıq şüşə balonda olanı isə 5 manatdır. Satıcı deyir ki, hər səhər İsmayıllı rayonundan təzə süd və qatıq gətirilir:

"Demək olar ki, günün sonuna satılmamış məhsul qalmır. İndi də cəmi bir şüşə (plastik şüşə) süd qalıb. Müştərilər soruşanda da insafən, çürümüş ola biləcəyini deyirəm. Qatıqların keyfiyyətinə söz ola bilməz".



**Eyyub Hüseynov,**
Azad İstehlakçılar Birliyinin sədri

> "Bakıda qanuni olaraq cəmi 3 "İvanovka" dükanı var. Yerdə qalanı saxta və yalançıdır

Nə yalan deyim, nə qədər kənd məhsulu olsa da, yayın qızmar günəşində soyuducusuz saxlanılan və müştəriyə təklif edilən süd-qatığın keyfiyyətinə şübhə ilə yanaşmamaq mümkün deyildir. Elə buna görə də məsələyə ekspert yanaşmasını öyrənməyə cəhd etdik...

■ **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov hafta.az-a söylədi ki, hazırda satışda mövcud olan süd və qatıqların keyfiyyət məsələsi ciddi problemlərdən biridir. Azərb**aycan südləri və heyvandarlıq təsərrüfatı ilə öz əhalisini təmin edə bilər. Həmçinin ölkədə bu biznesin inkişafına da kifayət qədər şərait yaradılıb:

"Təəssüf ki, bu sahədə çalışan biznes qurumları istehlakçı hüquqlarını pozur. Ölkədə çoxlu sayda saxta adla satılan süd məhsulları var. Nehrə yağı adı ilə satılan yağların 98%-i saxtadır. Onların çoxunun realizə olunduğu yer "İvanovka" ilə heç bir əlaqəsi olmayan eyniadlı mağazalar şəbəkəsidir. Dəfələrlə dövlət orqanlarına müraciət etmişik ki, bu dükanlar adlarını dəyişdirsin. Bakıda qanuni olaraq cəmi 3 "İvanovka" dükanı var. Yerdə qalanı saxta və yalançıdır. Bu yerdə hazırda mövsümü olan dondurma məsələsinə də toxunmaq istərdim. Dondurmalarla da bağlı vəziyyət ürəkaçan deyil. Ölkədə 20-dən çox dondurma istehsalçısı var. Onların keyfiyyətində problem olduğunu müşahidə etmişik. Belə ki, adətən, dondurmaların yağlılığını artırmaq üçün tərkibinə müxtəlif qatqılar əlavə edilir".

Eyyub Hüseynov süd məhsulları ilə bağlı tez-tez şikayət zəngləri gəldiyini dilə gətirdi: "Əhali bilməlidir ki, yerli süd məhsulları xaricilər ilə müqayisədə daha üstündür. Ola bilsin, digər ölkələrdən gətirilən məhsulun etiketi cəlbedici, dadı isə daha ləzzətlidir. Lakin yararlılıq müddəti daha qısa olan süd məmulatları nisbətən üstündür. 5 il bundan öncə şüşə qablarda və 4 gün yararlılıq müddəti ilə satışa buraxılan məhsulları gördükdə mən çox sevinmişdim. Bu o deməkdir ki, istehsalçı məhsuluna güvənir. Hansı ki, başqa ölkələrdə belə hallar çox azdır".

**Qurum rəsmisinin sözlərinə görə, bu gün ölkəmizdə süd məhsullarının satışında bir sıra problemlər var. "Gəncə qaymağı" adı altında satılan qaymaq buna misaldır:**

"Bəzən görürük ki, körpə qidaları ilə qarışdırılan südləri plastik qablara tökürlər, sonluğuna əmzik taxıb balacalara verirlər. Bu hal yolverilməzdir. Hazırda ölkədə plastik qablardan imtina prosesi gedir. Yaxşı olardı ki, vətəndaşlar mümkün qədər şüşə qablarda satılan süd və qatığa üstünlük versinlər.

Açıq satılan qaymaqlar, əslində, qaymaq deyil. Hazırda Gəncədən paytaxta gətirilən külli miqdarda qaymaq Azad İstehlakçılar Birliyinin diqqətindədir. Tədqiq etmişik ki, heç Gəncə şəhərində o qədər camış təsərrüfatı da yoxdur. Aidiyyəti qurumlara sizin vasitənizlə müraciət edirəm ki, Gəncə qaymağının təbiiliyi araşdırılsın. Təəssüflər olsun ki, işə nəzarət edən rəsmi orqanlar susur". Sonda ekspert vətəndaşları məhsul alarkən diqqətli olmağa çağırdı. O, marketlərdə "Kənd məhsulları" adı altında satılan süd məhsullarının heç də hər zaman kənd məhsulu olmadığını vurğuladı:

"İstehlakçılara müraciət edirəm ki, bu adla satılan məhsulların tam ekoloji təmiz olmasına inanmasınlar. Əksər hallarda kənd məhsulu adı ilə satılan süd quru süddən hazırlanır. Qatıqlarda da bu cür hallara rast gəlinir".

✍ Banu

# "Azercell"in səyyar diş və göz klinikaları əhaliyə təmənnasız xidmət göstərməyə davam edir

Ⓡ

**"Azercell Telekom" MMC-nin Səyyar Diş və Göz Klinikaları son üç ayda bütün təhlükəsizlik və gigiyena qaydalarına riayət olunmaqla 400-dən çox aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan şəxsə xidmət göstərib.**

Belə ki, Azercell-in Səyyar Diş Klinikasında bu ilin ikinci rübü ərzində 166 nəfərə təmənnasız tibbi yardım göstərilib. Aprel ayında klinikanın həkimləri Suraxanı rayonunda şəhid, qazi və aztəminatlı ailələrin övladlarını (46 nəfər) müalicə və müayinə ediblər. May ayında Masazır qəsəbəsindəki 56 saylı Kəlbəcər tam orta məktəbinin 50-yə yaxın şagirdi müayinədən keçib. İyun ayında isə Gürgən qəsəbəsində xidmətdə olan klinikada 71 uşağın diş problemi aradan qaldırılıb. Ümumilikdə bu ilin ilk yarısında Azercell-in Səyyar Diş Klinikasında 218 nəfər müalicə alıb. Hesabat dövründə Azercell-in Səyyar Göz Klinikası da öz növbəsində oftalmoloji problemləri olan şəxslərə yardımını əsirgəməyib. Son 3 ayda Azərbaycanın müxtəlif bölgələrinə səyahət edən klinikanın həkimləri 267 nəfərə kömək göstəriblər. Təkcə iyun ayında 120 xəstə (93 böyük, 27 uşaq) pulsuz müayinə və müalicə olunub. Onlar arasında şəhid və qazi ailələrinin üzvləri, aztəminatlı ailələrin uşaqları, uşaq və gənclər təşkilatlarının üzvləri də var.




2021-ci ilin əvvəlindən bu günədək klinikanın həkimləri tərəfindən göz problemi olan 372 nəfərə (230 böyük, 142 uşaq) yardım edilib. Bu müddət ərzində klinikanın heyəti Bakı ilə yanaşı, Sumqayıt, Pirallahı və Zirə qəsəbələri, Quba, Ucar, Kürdəmir rayonu, Siyəzən rayonları, Xudat şəhərində səyyar şəkildə xidmət göstərib.

Beləliklə, Azercell-in Səyyar Klinikaları bu il ərzində ümumilikdə 600-ə yaxın şəxsə ödənişsiz tibbi xidmət təqdim edib. Qeyd edək ki, "Azercell Telekom" MMC-yə məxsus və 10 ildən çox müddətdə xüsusi qayğıya ehtiyacı olan əhaliyə təmənnasız xidmət edən səyyar klinikalar "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyinin dəstəyi ilə fəaliyyət göstərir.

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏBRİKİ



Prezident İlham Əliyev ABŞ Prezidenti Cozef Baydenə təbrik məktubu ünvanlayıb. Təbrik mətnində deyilir ki, keçən il 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulmuş, ölkəmizin ərazi bütövlüyü bərpa olunmuş, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrası təmin edilmişdir. Münaqişənin başa çatması bölgədə yeni geosiyasi reallıq yaratmış, davamlı sülh, iqtisadi dirçəliş və regional əməkdaşlıq üçün əlverişli zəmin formalaşdırmışdır. Hesab edirəm ki, ABŞ yaranmış reallığa uyğun olaraq Azərbaycan ilə Ermənistan arasında ərazi bütövlüyünə, suverenliyə, sərhəd toxunulmazlığına qarşılıqlı hörmət əsasında dayanıqlı sülhün bərqərar olmasına və etimad mühitinin yaradılmasına əhəmiyyətli töhfə verə bilər. Hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri həyata keçirilir. Biz bu prosesdə tərəfdaş qismində ABŞ şirkətlərini də görmək istərdik.

### Həftənin DƏSTƏYİ



"Bəli, biz Liviyada varıq, Azərbaycanda, Suriyada varıq, Şərqi Aralıq dənizində də varıq, olmağa da davam edəcəyik". Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. "Özümüz, dostlarımız və bütün insanlıq üçün daha təhlükəsiz, daha hüzurlu və daha ədalətli bir dünya qurmağın mübarizəsini aparırıq. Bizə nə dedilər? Kimlərin dediyini bilirsiniz. Suriyada nə işiniz var? Liviyada nə işiniz var? Qarabağda nə işiniz var? Şərqi Aralıq dənizində nə işiniz var? Bunu deyənlər ya dünyadan xəbərsizdir, ya da düşmənin qılıncını çəkməkdədir", - deyə Ərdoğan qeyd edib.

### Həftənin QANUNU



Avropa İttifaqı ölkələri plastik qablardan istifadəyə birdəfəlik son qoyub. Bununla bağlı müvafiq qanun 3 iyul tarixində qüvvəyə minib. Bu haqda Ətraf mühit üzrə Avropa komissarı Virginijus Sinkevicius öz tvitter hesabında yazıb. Sinkevicius qeyd edib ki, iyulun 3-də Avropanın plastik qabların, pambıq çöplərin, kokteyl üçün çubuqların, hava şarları üçün çubuqların, okso-parçalana bilən yemək qablarının və köpük stəkanların istifadəsindən və istehsalından birdəfəlik olaraq imtina etdiyi o gün gəlib çatıb.

### Həftənin MƏHKUMU



Dünyaca məşhur aktrisa Ellison Mek həbs olunub. 38 yaşlı aktrisanın Nyu-York mərkəzli NXIVM seks təriqətinə üzv olduğu açıqlanıb. O, qadınları sözügedən təriqətə cəlb etməkdə ittiham edilib. Mek qadınları manipulyasiya edərək onları məzhəbin köləsi halına salıb, təhdidlərlə təriqətdə saxlayıb. Məhkəmə zalında barəsində 3 illik həbs qərarı verilən aktrisa "Ömrümün sonuna qədər peşman olacağım qərarlar verdim. NXIVM-ə gətirdiyim hər kəsdən üzr istəyirəm", - deyə qeyd edib.

### Həftənin TƏYİNATI



Səhiyyə Nazirliyinin baş pediatrı dəyişdirilib. Bununla bağlı səhiyyə nazirinin birinci müavini, səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev müvafiq əmr imzalayıb. Əmrə əsasən, tibb elmləri doktoru, professor Nəsib Quliyev baş pediatr vəzifəsindən azad olunub. T.Musayevin digər əmri ilə "İnternational Medical Center Bakı" MMC-nin "Baku Medical Plaza Klinikası"nın pediatriya və neonatologiya şöbəsinin müdiri Erkin Rəhimov baş pediatr vəzifəsinə təyin olunub.

### Həftənin QƏRARI




Mərkəzi Bank pandemiya səbəbindən kredit ödənişində yubanmaları olanlara cərimə faizi, dəbbəpulu və digər cərimələrin hesablanmaması, borcalanların kredit öhdəlikləri üzrə gecikmələrlə bağlı onların kredit tarixçələrinin pisləşməməsinə dair tövsiyə müddətini bu il oktyabrın 1-dək uzadıb. Mərkəzi Bankın tövsiyəsinə əsasən pandemiya təsirləri səbəbindən krediti ödəyə bilməyən vətəndaşlarımızın borcuna oktyabrın 1-dək cərimə faizi, dəbbəpulu və digər cərimələr hesablanmamalıdır.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Kann Festivalı başladı...**

# "Əlcəzair xalqı qəhrəmanlıq dastanı yazdı"

**Əhməd Beggar,**
Kasdi Merbah Universitetinin professoru

Fransa heç vaxt Əlcəzairdə işlədiyi cinayətləri qəbul etməyib.

▸▸ Səh. 7

## STATİSTİKA



■ İkinci istehsal prosesində 1 ton kağızın hazırlanması üçün 4000 KVtsaat elektrik enerjisi sərf edilir.

■ Yaponiyada istehsal edilən kağızın 60 faizi ikinci istehsalat prosesi nəticəsində hazırlanır.

■ İkitərəfli nəşretmə funksiyasına malik printerdən istifadə ofislərin kağız xərclərini 35 faiz azaldır.

■ Dünyada istehsal edilən kağızın böyük hissəsi sənəd və poliqrafiyaya yox, yeşiklərin hazırlanması və qablaşdırmaya sərf edilir.




▸▸ Səh. 6

# "Kontakt home" qazini məhkəmə ilə hədələyir